RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 189 (8505) CÜMƏ, 18 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV İRADƏSİ

## Dövlətin və xalqın maraqlarına xidmət edən bu iradə möhkəm və sarsılmazdır

**Bunu hamı bilir: əgər İlham Əliyev qarşıya məqsəd qoydusa, ona mütləq nail olur! Bu, birmənalıdır!**

*İlham Əliyev xalqla açıq danışır, şəffaf fəaliyyət göstərir!*

*Görülən və görüləcək işlər barədə ölkə ictimaiyyətinə ətraflı məlumat verir!*

**İlham Əliyev müəyyənləşdirdiyi hədəfə çatmaq üçün ortaya möhkəm, sarsılmaz iradə qoyur!**

**Sonra isə düşünülmüş siyasət yeridərək, hesablanmış addımlar atır!**

*Azərbaycan xalqı da, bütün dünya da bilir ki, Azərbaycan Prezidenti İlham Əliyev dediyi sözün, verdiyi vədin sahibidir.*

*Bunu dövlətə rəhbərlik etdiyi on yeddi ildə dəfələrlə, dönə-dönə sübut edib!*

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdanda "Mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" demişdi.

Sona qədər də belə oldu, vədinə sadiq qaldı!

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev də bütün fəaliyyətini xalqımızın xoşbəxtliyinə və firavanlığına həsr edib!

**Qarşısına qoyduğu hər bir çətin, möhtəşəm vəzifə dövlətimizin inkişafına, xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edir.**

**Əslində, İlham Əliyevin hədəfləri bizim hamımızın arzu və istəyini, dövlətimizin yüksəliş və inkişafını ifadə edir!**

*Bu mənada xalq dövlət başçısını tam dəstəkləyir, İlham Əliyev bütün sosioloji mərkəzlərin keçirdiyi sorğularda daim ən yüksək nəticəyə - 90 faizdən çox reytinqə sahib çıxır!*

*Xalqla iqtidarın birliyi və həmrəyliyi həm də bu formada təzahür edir: arzu bir, istək bir, niyyət bir!*

❖ ❖ ❖

Xalqımızın və dövlətimizin son 17 ildə qazandığı uğur və nailiyyətlər İlham Əliyevin adı, fəaliyyəti və müdrik rəhbərliyi ilə bağlıdır.

Bu zaman tarix üçün az sayılsa da, görülən işlər möhtəşəmliyi ilə diqqət çəkir.

Onların bir qisminə birlikdə nəzər salaq.

**İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlayacağını, möhkəmləndirəcəyini və daim müstəqil siyasət yürüdəcəyini vəd etmişdi.**

Biz hamımız bu sahədəki uğurların şahidiyik:

- Azərbaycan dünyada hamı tərəfindən tanınan və qəbul edilən müstəqil dövlətdir, heç kimin forpostu, əyaləti və ya quberniyası sayılmır;
- dövlət başçısı daim xalqın milli maraqlarına əsaslanan daxili və xarici siyasət yürüdür;
- dünya birliyində xüsusi çəkisi və nüfuzu vardır;
- hamı Azərbaycana ləyaqətli dövlət kimi hörmətlə yanaşır.

**İLHAM ƏLİYEV AZƏRBAYCANI indi tarixinin ən qüdrətli dövrünü yaşayır!**

**Bu hədəfə çatmaq üçün dövlət başçısı mərhələlərlə hədəflər müəyyənləşdirmiş, bu barədə açıqlamalar vermiş, qüvvə və imkanları məqsədə çatmaq üçün səfərbərliyə almışdır.**

❖ ❖ ❖

İlham Əliyev prezidentliyə başlayanda xaos və anarxiya dövrü, çörək növbələri və xalqa çörək əvəzinə jmıx yedizdirilən vaxtlar arxada qalsa da, həyat səviyyəsi aşağı idi. Bakıda tez-tez elektrik enerjisi verilişində fasilələr yaranır, regionlar isə sutkada 5-6 saat işıq ala bilirdilər.

Kənd təsərrüfatı dağılmış, kəndlər boşalmış, yollar köhnələrək yararsız hala düşmüşdü.

**İlham Əliyev bu vəziyyəti tezliklə düzəldəcəyinə söz verdi:**

*"Azərbaycanın hər bir kəndində günün istənilən vaxtı elektrik enerjisi olacaq".*

*"Aqrar sahə dirçəldiləcək, kənddə sahibkarlıq inkişaf etdiriləcək".*

*"Kəndlərimizin siması tamam dəyişəcək".*

Ardı 3-cü səh.

# Korrupsiyaya qarşı sözdə yox, əməldə mübarizə aparılır

## Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi tədbirlər hərtərəfli və innovativ xarakter daşıyır

Azərbaycanda korrupsiya, rüşvətxorluq və digər bu kimi neqativ halların aradan qaldırılması hər zaman əsas hədəflərdən biri sayılıb. Son illər isə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, bu sahədə yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, korrupsiyaya qarşı mübarizə keyfiyyətcə yeni müstəviyə keçib. Hazırda ölkədə korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, hərtərəfli və innovativ xarakter daşıyır.

### Rüşvətxorluğa qarşı dözümlülük sıfır səviyyəsindədir

Bu gün korrupsiya və rüşvətxorluq halları bütün ölkələrdə mövcuddur. Ancaq əsas məsələ dövlət və hökumətin bu proseslərə hansı prizmadan yanaşmasıdır. Cənab İlham Əliyevin söylədiyi kimi, Azərbaycanda bu məsələlərə dözümlülük sıfır səviyyəsindədir və görülən işlər bunu bir daha təsdiqləyir.

Son 2 ildə təkcə yerli icra orqanlarının rəhbərləri yox, eyni zamanda mərkəzi icra orqanlarının rəhbərlərinin də məsuliyyətə cəlb edilməsi və bu məsələlərin ictimailəşdirilməsi təqdirəlayiq hal hesab olunur. Prezidentin insanların vəzifələrə təyinatı ilə bağlı tövsiyələrinin də ictimaiyyətə çatdırılması bu prosesin tərkib hissəsidir.

Prezident İlham Əliyev ötən il Yevlax və Xaçmaz rayonlarına təyin etdiyi yeni icra hakimiyyəti başçılarına tapşırıq və tövsiyələrini verərkən bu məsələyə xüsusi olaraq toxunmuşdu. Bütün xoşagəlməz hallara son qoyulmasını, rüşvətxorluq, korrupsiyanın tamamilə yığışdırılmasının vacibliyini söyləyən Prezident məmurlara mühüm göstəriş verib, ciddi xəbərdarlıq etmişdi: "Sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər".

Dövlət başçısı dedi ki, Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmurunun həyat tərzi olmalıdır.

Ardı 3-cü səh.



# O, tarixi bir gün idi...

## 18 il əvvəl sentyabrın 18-də BTC-nin təməli qoyulmuşdur

O vaxt Səngəçal terminalı təzəcə genişləndirilməyə başlamışdı. Hələ nə "Azəri" neft verirdi, nə də "Şahdəniz" qaz... Bakı-Tbilisi-Ərzurum kəməri də yox idi. "Cənub qaz dəhlizi" isə heç xəyala da gəlmirdi.

Bu qlobal layihələrə doğru digər mühüm layihələr irəliləyərək gerçəkləşirdi. Bunların ən vacib olanlarından biri Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri idi.

2002-ci ilin 18 sentyabr günü idi. Bakıdan Səngəçala uzanan yolla möhtəşəm bir maşın karvanı irəliləyirdi.

Ardı 5-ci səh.

# Azərbaycan COVID-19-la uğurla mübarizə aparır

## Bu mübarizədə əldə edilən müsbət tendensiyanın davamlı olması isə vətəndaş məsuliyyətindən asılıdır

Dünyada koronavirus təhlükəsi davam edir və ikinci-üçüncü dalğaları ilə ölkələri yenidən təhdid etməyə başlayıb. Xüsusilə də qarşıdan payız-qış mövsümünün gəlməsi və bu fəsillərdə digər respirator viruslarla bərabər COVID-19-un daha təhlükəli hal alacağı qorxusu tədbirli davranmağı zəruri edir.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyindən də bildirilib ki, payız fəslində məktəblərin yenidən açılması, qrip mövsümünün başlaması və qış aylarında yaşlı insanlar arasında ölüm hallarının artması koronavirusla bağlı mövcud epidemioloji vəziyyəti dəyişdirə bilər.

Qurumdan o da məlumat verilib ki, mövcud sübutlar göstərir ki, məktəblərin yenidən açılması epidemioloji vəziyyətə təsir edən əsas amil deyil: "Uşaqlar virusun ötürülməsində rol oynaya bilərlər, lakin bu, məktəbdən daha çox sosial yığıncaqlarda baş verir. Məktəblər yenidən açılandan sonra orada lazımi qabaqlayıcı tədbirlərin görülməsi vacibdir. Növbəti qrip mövsümü sürətlə yaxınlaşır. İndi ölkələrin qriplə bağlı vəziyyəti izləməsi, hər iki virusu əhatə edəcək şəkildə gündəlik epidemiyaya nəzarət sistemini yenidən qurması və gücləndirməsi çox vacibdir. Bu il bu məsələ daha böyük əhəmiyyət daşıyır, çünki tibb müəssisələrini və hazırda COVID-19-la mübarizə aparan tibb işçilərini böyük yük altında qalmaqdan qorumalıyıq".

Ardı 5-ci səh.

◆ 18 Sentyabr Üzeyir Musiqi Günüdür



# Üzeyir bəy zirvəsi

O, Azərbaycan musiqi sənətinə ölməz əsərlər bəxş etdi, bu sahənin inkişafı naminə böyük işlər gördü. O, müasirləşməyin yalnız yad mədəniyyətlərə bürünmək, qərbləşmək, avropalaşmaq olmadığını göstərdi. O, sübut etdi ki, hər millətin qoruyub yaşatdığı, nəsildən-nəslə ötürdüyü mənəvi sərvətlər həm də onun dəyərləri, tarixi və müasirliyidir...

O, xalqını elə sevdi, təəssübünü elə çəkdi, yolunda o qədər fədakarlıq göstərdi ki, sağlığında adı çoxlarının yüksələ bilməyəcəyi zirvədə tutuldu. Gördüyü misilsiz işlərlə minnətdarlıqla xatırlanan, yazıb-yaratdıqları xalqının milli-mənəvi sərvəti olan bəstəkar, musiqiçi, təşkilatçı Üzeyir Hacıbəyli hər zaman yaddaşlardadır. Ona istinad olunur, ondan öyrənilir, nümunə göstərilir...

Ardı 6-cı səh.

# Ermənistanda xaotik vəziyyət: *dövlət borcu və işsizlik artır*

## Pandemiya fonunda işğalçı ölkənin iqtisadi tənəzzülü daha da sürətlənir

Pandemiya fonunda sosial-iqtisadi sahədə dərin böhran yaşayan Ermənistanda yoxsulluq həddi gündən-günə yüksəlir. Buna əsas səbəblərdən biri isə Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra sosial-iqtisadi vəziyyətin düzəlməsi əvəzinə daha da ağırlaşmasıdır. Ermənilər sosial şəbəkələrdə bəyan edirlər ki, baş nazir Nikol Paşinyan hakimiyyətdə olduğu müddətdə vəziyyət düzəlməyəcək.

Getdikcə daha gərgin xarakter almağa başlayan ictimai-siyasi vəziyyət koronavirus pandemiyası fonunda ölkədə həm də xaotik durum formalaşdırmağa başlayır. Qeyd olunur ki, əməkhaqqının, pensiya təminatının artmadığı bir ölkədə əksinə çörək, süd və ət məhsullarının və digər zəruri məhsulların qiymətləri gündən-günə artır, inflyasiya həddi, işsizlik göstəriciləri yüksəlir.

Elə bunların nəticəsidir ki, işğalçı ölkədə iqtisadi durum getdikcə daha da ağırlaşır. Bunu keçirilən sosioloji sorğular da təsdiqləyir. Belə ki, rəyi soruşulan insanların 37,3 faizi ölkə iqtisadiyyatının pis vəziyyətdə olduğunu düşünür. Respondentlərin 34,6 faizinin fikrincə, Ermənistan iqtisadiyyatı çox pis vəziyyətdədir. Əhalinin yalnız 0,7 faizi iqtisadi vəziyyətin yaxşı olduğunu bildirib.

Ardı 5-ci səh.

# Çili Respublikasının Prezidenti zati-aliləri cənab Sebastian Pinyera Eçenikeyə

Hörmətli cənab Prezident!

Çili Respublikasının müstəqilliyinin 210-cu ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çili xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2020-ci il*

# Yaponiyanın Baş Naziri zati-aliləri cənab Yoşihide Suqaya

Hörmətli cənab Baş Nazir!

Yaponiyanın Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Yaponiya ilə dostluq və əməkdaşlıq münasibətlərimizin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İnanıram ki, ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17sentyabr 2020-ci il*

# Qusar rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qusar rayonunun əhalisi 8999 nəfər olan 9 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 9 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 630,0 (altı yüz otuz) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 sentyabr tarixli Sərəncamına Əlavə

## Qusar rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Çubuqlu kəndi | 1 | 571 |
| 2. | Düztahir kəndi | 1 | 1747 |
| 3. | Gilahoba kəndi | 1 | 462 |
| 4. | İmamqulukənd kəndi | 1 | 3043 |
| 5. | Qalacıq kəndi | 1 | 1493 |
| 6. | Qullar kəndi | 1 | 366 |
| 7. | Yasaboba kəndi | 1 | 624 |
| 8. | Zindanmuruqqışlaq kəndi | 1 | 558 |
| 9. | Zuxuloba kəndi | 1 | 135 |
| | Cəmi | 9 | 8 999 |

# Azərbaycan parlamentinin nümayəndə heyəti Rusiyaya rəsmi səfər edəcək

Sentyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Rusiya Federasiyasına ilk rəsmi səfər edəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə deputatlardan və parlament Aparatının məsul işçilərindən ibarət rəsmi şəxslər daxildir.

Səfər zamanı Milli Məclisin Sədri Rusiya Federasiyası Federal Məclisi Federal Şurasının Sədri Valentina Matviyenko, Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodin ilə görüşəcək, parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparacaq.

Səfər müddətində Sahibə Qafarovanın Rusiya Federasiyası Federal Məclisi Federal Şurasının plenar iclasında çıxışı gözlənilir.

Rusiya Dövlət Dumasında olarkən Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması arasında əməkdaşlıq haqqında sazişin imzalanması mərasimi keçiriləcək.

Milli Məclis Sədrinin Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov ilə görüşü də nəzərdə tutulub.

Keçiriləcək görüşlərdə parlamentlər səviyyəsində mütəmadi səfərlərin həyata keçirilməsi, qanun yaradıcılığı prosesində təcrübə və informasiya mübadiləsi, nüfuzlu beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimizin iştirakı, regional münaqişələrin həlli yolları, iqtisadi, siyasi, mədəni, humanitar sahələrdə əlaqələrimizin daha da möhkəmləndirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

Səfər sentyabrın 23-də başa çatacaq.

# Prezidentin köməkçisi sosial, iqtisadi, humanitar və demokratiya sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşüb







Sentyabrın 17-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev QHT-hökumət dialoqu çərçivəsində sosial, iqtisadi, humanitar və demokratiya sahəsində fəaliyyət göstərən 96 QHT-nin rəhbəri ilə görüş keçirib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının İctimaiyyətlə əlaqələr bölməsindən məlumat verilib. Bildirilib ki, görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev şuranın daim sosial, iqtisadi, humanitar və demokratiya sahəsində fəaliyyət göstərən QHT-lərin müxtəlif istiqamətlərdə irəli sürdükləri təşəbbüsləri dəstəklədiyini, ictimai aktuallıq kəsb edən layihələrə maliyyə ayırdığını, bilik və bacarıqların artırılmasına yardım etdiyini qeyd edib. Diqqətə çatdırıb ki, şuranın dəstəyilə həyata keçirilən bu layihələrdən on minlərlə ölkə vətəndaşı faydalanıb. Azay Quliyev şuranın 2020-ci il qrant müsabiqələri çərçivəsində 214 QHT-nin layihəsinin COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunduğunu, bunlardan 197-də sosial dəstəyə ehtiyacı olan ailələrə müxtəlif növ birdəfəlik yardımlar göstərildiyini deyib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib ki, bu gün sayca 6-cı və ən çoxsaylı QHT qruplarından biri ilə görüş keçirir. Bu qrupdakı QHT-lərin fəaliyyət sahəsi çox geniş olmaqla yanaşı, həm də cəmiyyət həyatında əhəmiyyətli rola malikdir. Ölkəmizdə sosial, iqtisadi, humanitar və demokratiya sahəsində görülən işlər sübut edir ki, Azərbaycanda həyata keçirilən siyasət bütün çalarları ilə məhz insan amilinin yüksəlişinə xidmət edir.

Hikmət Hacıyev Azərbaycan Prezidentinin çağırışına uyğun olaraq QHT-lərin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində daha yaxından və effektiv formada iştirak etməsinin vacibliyini vurğulayıb. Prezidentin köməkçisi bununla bağlı yeni və daha çevik mexanizmlərin yaradılmasının zəruri olduğunu deyib.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevrilib. Ölkəmiz ümumi daxili məhsulun artım tempinə görə dünyada liderliyini qoruyub saxlaya bilmiş, yoxsulluğun səviyyəsi kəskin aşağı enmiş, dövlət büdcəsinin gəlirləri artmışdır. Hər bir Azərbaycan vətəndaşının firavan həyat tərzinin formalaşması, onun normal yaşayışının təmin olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə davamlı şəkildə həyata keçirilən güclü sosial siyasətin başlıca məqsədlərindəndir. Xüsusilə şəhid ailələrinin, müharibə əlillərinin, veteranların, qaçqın və məcburi köçkünlərin problemləri daim ölkə rəhbərinin və Birinci vitse-prezidentin diqqət mərkəzindədir.

Prezidentin köməkçisi bildirib ki, hər bir dövlətin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Ölkəmizdə son illərdə dövlətin təhsilin inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlər onu deməyə əsas verir ki, Azərbaycan gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.

Prezidentin köməkçisi deyib ki, bu gün digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əsaslı və sürətli islahatlar keçirilir.

Hikmət Hacıyev təhsil və mədəniyyət sahəsində Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, yeni müstəqillik tariximizdə Azərbaycanın demokratiya yolunda qət etdiyi məsafəni dünyanın inkişaf etmiş əksər ölkələri daha uzun müddətə keçib. Bu gün ölkəmizdə söz və fikir azadlığının, siyasi plüralizmin, çoxpartiyalı sistemin mövcudluğu, vətəndaşların azad seçiminə yüksək şərait yaradılması, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm nailiyyətlər əldə edilməsi Azərbaycanda demokratik mühitin vacib göstəriciləri sırasında yer alır.

Prezidentin köməkçisi qeyd edib ki, bugünkü görüş QHT-lərin fikirlərini və təkliflərini onunla bölüşmək üçün gözəl imkandır. Hikmət Hacıyev dövlətin QHT-lərdən ictimai problemləri öyrənmək və aidiyyəti qurumlara əsaslandırılmış təkliflər vermək, ixtisaslaşdıqları sahələrdə dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, dövlət orqanları ilə QHT-lər arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi, habelə ictimai həyatın müxtəlif sahələrində mövcud olan problemlərin alternativ həlli yolları ilə bağlı təşəbbüslərlə çıxış etmək, cəmiyyətdə baş verən hadisələrə operativ reaksiya vermək, ictimai və milli maraqlar ətrafında səfərbər olmaq, innovativ ideyalar və yaradıcı təşəbbüslər irəli sürmək, qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla fəaliyyətini təkmilləşdirmək və şəffaflığı, yeni ideyaları, təşəbbüskarlığı və operativliyi təmin etmək kimi gözləntilərinin olduğunu bildirib.

Görüşdə "İqtisadi və Sosial İnkişaf Mərkəzi" İctimai Birliyinin sədr müavini Rəşad Həsənov, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin sədri Ruslan Atakişiyev, Sosial Rifah Qaçqın və Məcburi Köçkünlər İctimai Birliyinin nümayəndəsi Azər Allahverənov, Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin sədri Samir Əliyev, "Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım"" İctimai Birliyinin sədri Zenfira Mustafayeva, "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova, "Qəbələ Regional Gənclərin Resurs Mərkəzi" İctimai Birliyinin sədri Qalib Nəbiyev, "Dünya Gənc Türk Yazarlar" İctimai Birliyi Məsləhət Şurasının başçısı Əkbər Qoşalı, "Tərtər rayonunun sosial, iqtisadi və kənd təsərrüfatının inkişafına dəstək" İctimai Birliyinin sədri Zülfiyyə Nuriyeva, "Vəfa" sosial problemlərin həllinə dəstək İctimai Birliyinin sədri Fatma Hacıyeva, "Tərəqqi" sosial-iqtisadi araşdırmalar İctimai Birliyinin sədri İndira Şəmsivari, "Mina Qurbanlarının Sosial-İqtisadi Problemlərinin Həllinə Kömək" İctimai Birliyinin sədri Məmmədhəsən Həsənov, "Gənclərin Sosial İnkişafına Dəstək" İctimai Birliyinin sədri Rövşən Bağırov, "Təmas" regional inkişaf İctimai Birliyinin sədri Südabə Məmmədova, "Quba Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi" İctimai Birliyinin sədri Eynulla Xeyrullayev, "Şəmkir Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim" İctimai Birliyinin sədri Fuad Bədəlov, "Şirvan Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim" İctimai Birliyinin sədri Əli Mirzəyev, "Mingəçevir Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlimi" İctimai Birliyinin sədri Füzuli Əsədov, Gender və İnsan Hüququ Araşdırma Birliyinin sədri Rəna Mirzəzadə, "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədri Bahar Qasımova, "Qadın Problemlərinin Tədqiqatları Mərkəzi" İctimai Birliyinin sədri Sevil Allahverdiyeva, "Kimsəsiz və Aztəminatlı Ailələrin Uşaqlarına Sosial-Mənəvi Dəstək" İctimai Birliyinin sədri Təranə Əhməd, "Gəncə Regional Qadın Mərkəzi" İctimai Birliyinin sədri Məleykə Əlizadə, "Ailə Dünyası" ailələrə hüquqi yardım İctimai Birliyinin sədri Gülayə Səfərova, Azərbaycan Maarifçi Gənclər Təşkilatının sədri Ruhiyyə Aslanova, "Qadın və uşaqların innovativ maarifləndirilməsinə dəstək" İctimai Birliyinin sədri Aynur Zülfüqarova, "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə, "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası İctimai Birliyinin sədri Rəşad Hüseynov, "Uşaq və Yeniyetmələrə Dəstək" İctimai Birliyinin sədri Fərhad Abdulov, "Valideyn himayəsindən məhrum olan uşaq və gənclərə yardım" İctimai Birliyinin sədri Zaur Seyidzadə, "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri Lamiyə İsayeva, "Dünya" Ana və Uşaqlar İctimai Birliyinin sədri Dünyaxanım Əliyeva, "Uşaqların Gələcəyi Naminə" İctimai Birliyinin sədri Könül Quliyeva, "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova, "Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri Mehriban Abdullayeva, İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi-Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlov, Beynəlxalq Diaspora Mərkəzi İctimai Birliyinin sədri İsmayıl Ağayev, "Gəncə Avro-Atlantik Məlumat Mərkəzi" İctimai Birliyinin sədri Mehman Xəlilov, "Mərhəmət" Kimsəsizlərə Yardım İctimai Birliyinin sədri İradə Polad, "Peşəyönümlü Təhsilin İnkişafına Yardım" İctimai Birliyinin sədri İradə Əlili, "Dostluq" gənclərin əlaqələndirmə mərkəzi İctimai Birliyinin sədri Yusif Ağayev, "Xan Şuşinski" Fondunun prezidenti Bəyimxanım Verdiyeva, "Gənclərin Töhfəsi" İctimai Birliyinin sədri Asim Vəliyev, Bələdiyyələrin İnkişafına Yardım İctimai Birliyinin sədri Niyaməddin Orduxanov, "Regional Sosial-İqtisadi İnkişaf üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri Elnarə Məhərrəmova, "Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin sədri Dilarə Muxtarova-Nağıyeva, "Avrasiya" Beynəlxalq Əlaqələr və Araşdırmalar İctimai Birliyinin sədri Solmaz Əliyeva, Mingəçevir Valideynlər Assosiasiyası İctimai Birliyinin sədri Fərman Nəbiyev, "Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası" İctimai Birliyinin sədri Günay Şahbazova, "Gələcək" İntellektual İnkişafa Yardım İctimai Birliyinin sədri Kazım Məmmədov, "Gənclərin Sosial Tərəfdaşlığı Mərkəzi" İctimai Birliyinin sədri Nihad Allahyarlı, "Mədəniyyətin və Milli Ənənələrin Təbliği" İctimai Birliyinin sədri Büllur Məmmədova, "Bakı Gənclər Klubu" İctimai Birliyinin sədri Azər Cavadov, Zəngəzur Cəmiyyətləri İctimai Birliyinin sədri Hacı Abdulla, "Türkiyə Universitetləri Məzunlar" İctimai Birliyinin sədri Çingiz Bayramov, "Odlar Yurdu" Gənclər İctimai Birliyinin sədri Nigar Ələsgərova, "Bilik və Maarifçiliyin İnkişafı" İctimai Birliyinin sədri Camal Məmmədov, "Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası İctimai Birliyinin sədri Afiq Məlikov, Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli, "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin sədri Nurəddin Mehdiyev, Gənclərin "Tənhalara Dayaq" İctimai Birliyinin sədri Xoşbəxt Seidova, Azərbaycan Təfəkkür Gənclər Assosiasiyası İctimai Birliyinin sədr müavini Kənan Eyvazov, Qadınlar Arasında Həmrəylik İctimai Birliyinin sədri Ruhəngiz Hüseynova, "Azadlıq Hərakatçıları" İctimai Birliyinin sədri Təhmasib Novruzov, "Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Gəray Əlibəyov, "İctimai İştirakçılığın Dəstəklənməsi " İctimai Birliyindən Şaban Nəsirov, "Qərb-resurs" vətəndaş cəmiyyətinin inkişafına dəstək İctimai Birliyinin sədri Ramil Göyüşov, Müasir Azərbaycan Qadını İctimai Birliyinin sədri Kəmalə Muradlı, "Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri Samirə Mustafayeva, "Uşaq və tələbə gənclər dünyası" İctimai Birliyinin sədr müavini Bəxtimşah Tağıyeva, Miqrasiya Proseslərinin Tədqiqi İctimai Birliyinin sədri Fəridə Vəliyeva, "Aşıq Şəmşir" mədəniyyət ocağı İctimai Birliyinin sədri Həbib Misirov, "Uğur" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri Əlövsət Allahverdiyev, "Gəncliyin Təşəbbüsü" maarifləndirmə İctimai Birliyinin sədri Azər Əliyev, "Həsrət Yolu" Əsir və Girovlara Kömək İctimai Birliyinin sədri Esmira Orucova, Azərbaycan Tarixçiləri İctimai Birliyinin sədri Mehri Xanbabayeva, "Beyləqan Gənclərinin Maarifləndirilməsi və Sosial İnkişafı" İctimai Birliyinin sədri Zaur Quliyev, Himayədar Humanitar Tərəqqi İctimai Birliyinin sədri Himayət Rizvanqızı, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin sədri Rəbiyət Heydərli, "Elin Səsi" milli-mənəvi dəyərlərimizin qorunması İctimai Birliyinin sədri Elvin Talışınski, İqtisadi Tədqiqatlar Mərkəzinin sədri Qalib Bayramov, Maarifçi Qadınlar İctimai Birliyinin sədri Şərqiyyə Məmmədova, "Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzinin icraçı direktoru İlyas Səfərov, Gəncə Aqrobiznes Assosiasiyasının sədri Vüqar Babayev, Vətəndaş Hüquqları İnstitutunun sədri Bəşir Süleymanlı, Avrasiya Əməkdaşlıq Fondunun prezidenti Nailə Həşimova, Azərbaycan Avropa Hərəkatının sədri Ramin Hacılı, Media Hüquqları İnstitutunun sədri Xalid Ağalı, Yayımların Monitorinq Mərkəzi İctimai Birliyinin sədri Nəsimi Məmmədli, "Optimist" Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin sədri Habil Niftalı, Qafqaz Media Tədqiqatları Mərkəzinin təsisçisi Əziz Orucov, "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyinin Sədri Aydın Əbilov, Milli Fikir Mərkəzinin sədri Şəhriyar Məcidzadə, "Sabitlik və İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Rasim Məmmədov və Sosial Dövlət Naminə İctimai Birliyinin sədri Faiq Əhmədov iştirak ediblər.

Görüşdə çıxış edən QHT rəhbərləri hökumətin QHT-lərlə geniş formatda və davamlı olaraq keçirdiyi yeni dialoqun vacib və faydalı olduğunu vurğulayıblar. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahədə onları narahat edən məsələlər barədə danışaraq fikir və təkliflərini səsləndiriblər.

Yekunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev bugünkü müzakirələrin faydalı olduğunu, QHT-lərin irəli sürdüyü rəy və təkliflərin araşdırılacağını və əsaslandırılmış məsələlərin həlli istiqamətində müvafiq addımların atılacağını qeyd edib.

# İLHAM ƏLİYEV İRADƏSİ

## Dövlətin və xalqın maraqlarına xidmət edən bu iradə möhkəm və sarsılmazdır



*Əvvəli 1-ci səh.*

**Atılan qətiyyətli addımlar vəziyyəti büsbütün dəyişdi.**

Azərbaycan az vaxt ərzində özünün enerji, ərzaq və nəqliyyat təhlükəsizliyini təmin etdi.

- Bir vaxtlar xaricdən elektrik enerjisi, təbii qaz alan Azərbaycan qısa müddətdə onlarca yeni su, istilik, bərpaolunan enerji ilə işləyən elektrik stansiyaları qurdu. İndi özü qonşu ölkələrə elektrik enerjisi satır.
- Avropanın təbii qazla etibarlı təminatında fərqlənir, Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən sonra dörd seqmentli "Cənub qaz dəhlizi"nə həyat vəsiqəsi verib.
- Ölkə daxilindəki qazlaşma isə dünya üzrə ən yüksək səviyyə sayılan 95 faizi ötüb.
- Ən müasir yol infrastrukturu yaradılıb, Böyük İpək yolu bərpa edilib. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsindən sonra Azərbaycan beynəlxalq logistika mərkəzinə çevrilib!

❖ ❖ ❖

Torpaqların işğal olunması, bir milyondan çox qaçqın və məcburi köçkün ordusunun yaranması, doğma yurd-yuvalarından qovulan insanların ağır və bəzən qeyri-insani şəraitdə yaşaması çıxılmaz vəziyyət yaratmışdı.

**İlham Əliyev "Bir nəfər də çadır şəhərciyində yaşamayacaqdır" vədinə dediyindən də tez əməl etdi!**

- Artıq 110-dan çox yeni qaçqın şəhərciyi və yaşayış kompleksi salınıb, hər il yüzlərlə məcburi köçkün ailəsi yeni mənzillərə köçürülür.
- Təkcə məcburi köçkünlərə deyil, şəhid ailələrinə, əlillərə, hətta jurnalistlərə belə dövlət hesabına tikilib təmir olunan mənzillər verilir.
- Bu proses pandemiya dövründə də davam etdirilir.

❖ ❖ ❖

Regionların inkişafına dair dörd dövlət proqramının uğurlu icrası sayəsində kənd və qəsəbələr simasını büsbütün dəyişib. Çoxsaylı kəndli-fermer təsərrüfatları yaradılıb, aqrar sahənin inkişafına sistemli dövlət qayğısı təmin edilib, sahibkarlığın inkişafına, onların güzəştli kreditlə təminatına münbit şərait yaradılıb.

COVID-19 pandemiyası ilə əlaqədar bütün dünyada ümumi daxili məhsul istehsalının azaldığı bir vaxtda Azərbaycan kəndində istehsalın artımı fərəh doğurur.

Sosial layihələr davamlı şəkildə həyata keçirilir.

❖ ❖ ❖

**"Azərbaycan gənci savadlı və sağlam olmalıdır" vədini də dövlət başçısı sürətlə yerinə yetirdi, neft kapitalının insan kapitalına çevrilməsi layihəsi uğurla icra olunmaqdadır.**

- Son illərdə 4 minədək yeni məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Müəllim kadrların yetişdirilməsinə, onların əməkhaqlarının artırılmasına diqqət çoxalmışdır.
- Dünyanın qabaqcıl ölkələrinin tanınmış universitetlərində dövlət hesabına təhsil alan yüzlərlə gənc geri dönərək vətəndə işə başlamışdır.
- Böyük idman uğurlarımız da vardır. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, beynəlxalq yarışlara evsahibliyi edir. Regionlarda 40-dan çox olimpiya idman kompleksi tikilərək gənclərin ixtiyarına verilmişdir.
- Azərbaycan I Avropa Oyunlarının təşkilatçısı, IV İslam Həmrəyliyi Oyunlarının qalibi kimi tarixə düşmüşdür.

❖ ❖ ❖

**İlham Əliyevin daha bir vədi işğal altındakı torpaqların tezliklə azad edilməsi ilə bağlıdır.**

Bu məsələdə qətiyyətli və prinsipial mövqe nümayiş etdirən dövlət başçısı ortaya möhkəm iradə qoymuşdur:

*"Azərbaycan bir qarış torpağını da düşmənə güzəştə getməyəcəkdir".*

*"Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir".*

*"Azərbaycan işğal altındakı torpaqlarını hökmən azad edəcəkdir".*

*"Biz Qarabağda, Şuşada dalğalandırılan qələbə bayrağını Azadlıq meydanına gətirəcəyik!"*

**Dövlət başçısı məqsədə çatmaq üçün lazım olan bütün vasitələrdən istifadə edir:**

- güclü ordu yaradılmış, ən müasir silahla təmin olunmuşdur;
- vətənpərvər hərbçilər, müasir hərbi biliklərə yiyələnən zabitlər korpusu yaradılmışdır;
- münaqişənin sülh yolu ilə həlli üçün sonadək cəhdlər göstərilmişdir;
- azğın düşmənə dördgünlük Aprel müharibəsində, Günnüt əməliyyatında, Tovuz istiqamətindəki döyüşlərdə qulaqburması verilərək ciddi xəbərdarlıq olunmuşdur.

*Lakin havadarlarına arxalanan Ermənistan sülh danışıqlarından yayınır, mənasız şərtlər irəli sürür, işğal altındakı torpaqları özününküləşdirməyə çalışır:*

- Dağlıq Qarabağı danışıqlar masasına gətirməyə çalışan Ermənistanın baş naziri Paşinyan "Qarabağ Ermənistandır, nöqtə", - deyə cəfəng bəyanat verir;
- Şuşanı Dağlıq Qarabağın mərkəzi elan edəcəklərini söyləyir, oradakı asma körpünün açılışına gedir;
- oğlu Xankəndidə hərbi qulluq keçir, arvadı Dağlıq Qarabağa gələrək oradakı digər arvadlara avtomatdan atəş açmağı öyrədir;
- Ağdamda yeni meyvə bağları salınır;
- xalqımıza məxsus mədəni-tarixi abidələr dağıdılır, yer adları dəyişdirilir;
- Livandan gətirilən terrorçular və erməni ailələri işğal ərazilərində yerləşdirilir, məskunlaşdırma aparılır və s.

❖ ❖ ❖

*Artıq erməni həyasızlığı son həddə çatmışdır!*

*Öz iradəsini ortaya qoyan İlham Əliyevin və xalqımızın səbri tükənmişdir!*

**"Qarabağ Azərbaycandır, nida işarəsi" deyən Prezidentimizin qətiyyətli addımlar atacağı heç kəsdə şübhə doğurmur!**

Ədalət bizim tərəfimizdədir!

Türk qardaşlarımız da daim yanımızdadır!

Düşmən isə Gəncə şəhərinə və Mingəçevir SES-ə raket atacağı ilə sərsəmcəsinə hədələyir!

*Bu məsələdə İlham Əliyevin iradəsi Azərbaycan xalqının iradəsidir!*

*Xalq öz rəhbərini böyük məhəbbətlə sevir, daim dəstəkləyir!*

*Müsəlləh əsgərə çevrilən hər bir Azərbaycan gənci Ali Baş Komandanından əmr gözlədiyini 14 iyul mitinq-yürüşündə açıq şəkildə bildirmişdir.*

**Son sözü isə xalq və onun rəhbəri söyləyəcəkdir!**

**Bəxtiyar SADIQOV**

# Korrupsiyaya qarşı sözdə yox, əməldə mübarizə aparılır

## Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi tədbirlər hərtərəfli və innovativ xarakter daşıyır

*Əvvəli 1-ci səh.*

Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməli, tamamilə şəffaf vəziyyət yaradılmalıdır.

### Şəffaf ictimai münasibətlər sistemi, yeni Milli Fəaliyyət Planı

Prezident İlham Əliyevin dövlət idarəçiliyində həyata keçirdiyi genişmiqyaslı islahatlara, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərə uyğun olaraq bu il Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibi də yenilənib.

Sentyabrın 15-də Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclası videoformatda keçirilib. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev komissiyanın sədri seçilib.

Komissiyanın sədri çıxış edərək cənab İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən etdiyi hədəflərə çatmaq üçün qurumun üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf strategiyasının mühüm tərkib hissəsini korrupsiyaya qarşı qətiyyətli mübarizə təşkil edir. Prezidentin siyasi iradəsinə uyğun olaraq, bu sahədə yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, korrupsiyaya qarşı mübarizə keyfiyyətcə yeni müstəviyə keçib, uğurlu iqtisadi, hüquqi və sosial siyasət nəticəsində şəffaf ictimai münasibətlər sistemi formalaşıb. Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Bu səbəbdən də dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilməli, ictimai şuraların fəaliyyətinin səmərəliliyi təmin edilməlidir. Komissiya sədri həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində müasir çağırışlara uyğun səmərəli mexanizmlərin tətbiqi üçün yeni təşəbbüslərin irəli sürülməsinin zəruriliyini vurğulayıb.

İclasda korrupsiyaya qarşı mübarizə sahəsində bu günədək görülən işlər nəzərdən keçirilib və növbəti illərdə bu sahədə reallaşdırılması zəruri olan tədbirlərin vahid strateji çərçivəsini müəyyənləşdirmək, prioritetləri önə çəkmək və bu tədbirlərin ölkədə gerçəkləşdirilən islahatlar kursuna cavab verməsini təmin etmək məqsədilə yeni Milli Fəaliyyət Planının əsas istiqamətləri müzakirə olunub. Həmçinin Milli Fəaliyyət Planının layihəsinin hazırlanması barədə tapşırıqlar verilib.

İclasda çıxış edən komissiya üzvləri qanunun aliliyinin və dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə açıqlıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Vətəndaşlara dövlət xidmətlərinin korrupsiya hallarını istisna edən şəraitdə, operativ və resurslara qənaət etməklə göstərilməsi üçün müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə və innovativ həllərin tətbiqinin genişləndirilməsi zərurəti qeyd edilib. İctimai nəzarətin təmin edilməsi məqsədilə mövcud mexanizmlərin tətbiqinin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın artırılması məsələlərinə baxılıb. Qanunvericiliyin təkmilləşdirilməsi üçün zəruri olan istiqamətlər qeyd edilib, habelə maarifləndirmə tədbirlərinin davam etdirilməsinin vacibliyi vurğulanıb.

### İctimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilir

Göründüyü kimi, Azərbaycanda korrupsiyaya qarşı mübarizənin səmərəli və keyfiyyətli olması üçün dövlət səviyyəsində dinamik, ardıcıl tədbirlər görülür və bu mübarizə tam aşkarlıq şəraitində reallaşdırılır.

Prezident İlham Əliyev mayın 1-də Baş prokuror Kamran Əliyevi qəbul edərkən korrupsiyaya qarşı mübarizə sahəsində mühüm addımların atılması ilə bağlı ciddi tapşırıqlarını verdi: "Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Korrupsiya və rüşvətxorluq üçün meydan həm inzibati yollarla, həm də institusional üsullarla daraldılmalıdır. Bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır. Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq".

Korrupsiyaya qarşı mübarizədə uğuru şərtləndirən ən vacib amil siyasi iradədir və ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində möhkəm siyasi iradə var. Prezidentin tapşırığı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin həyata keçirdiyi əməliyyatlar bir daha göstərdi ki, ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə var, heç kim qanundan üstün deyil. Qanunları pozan, rüşvətxorluq edən vəzifəli şəxslərin həbsi bir daha təsdiq edir ki, dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilir, ictimai şuraların fəaliyyətinin səmərəliliyinin təmin olunması istiqamətində tədbirlər görülür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Regional geosiyasi qütbləşmələr və Türkiyə-Azərbaycan münasibətləri" adlı vebinar keçirilib

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Türkiyə Xarici İşlər Nazirliyi Strateji Araşdırmalar Mərkəzinin (SAM) birgə təşkilatçılığı ilə "Regional geosiyasi qütbləşmələr və Türkiyə-Azərbaycan münasibətləri" adlı vebinar keçirilib.







AZƏRTAC xəbər verir ki, Türkiyə Xarici İşlər Nazirliyi SAM-ın direktoru Ufuk Ulutaş iki ölkə arasında ruhən dərin bağların olduğunu deyərək bu münasibətlərin strateji, akademik və intellektual səviyyədə də inkişaf etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, bu kimi görüşlər bu münasibətlərin daha da irəliləməsinə böyük töhfə verir.

BMTM-in İdarə Heyətinin sədri, səfir Fərid Şəfiyev son zamanlar həm bölgədə, həm də Türkiyə ətrafında müəyyən gərgin hadisələrin baş verdiyinə diqqət çəkib. O, iki ölkə arasında əlaqələrin tarixi köklərə malik olduğunu bildirib və sentyabrın 15-də Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etməsinin 102-ci ildönümünün qeyd olunduğunu vurğulayıb. Fərid Şəfiyev qeyd edib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra əlaqələr yeni mərhələyə qədəm qoyub və "Bir millət, iki dövlət" şüarı altında sürətlə inkişaf edir.

Türkiyə Xarici İşlər nazirinin müavini Yavuz Selim Kıran çıxışında Türkiyə-Azərbaycan münasibətlərinin strateji əlaqələrdən əlavə dostluq, qardaşlıq səviyyəsində inkişaf etdiyini bildirib. Nazir müavini deyib ki, hər iki ölkənin prezidentlərinin güclü liderliyi ilə əlaqələr sağlam və çoxtərəfli səviyyəyə çatıb. Bu gün Azərbaycanın Türkiyədə sərmayəsi 20 milyard, Türkiyənin Azərbaycana qoyduğu sərmayə 11 milyard dollar təşkil edir. O, əlaqələrin inkişafında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, TANAP layihəsinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin önəmini xüsusilə qeyd edib. Y.S.Kıran bildirib ki, Türkiyədə qaz yatağının aşkarlanması əlaqələri başqa səviyyəyə çatdıracaq. S.Y.Kıran Cənubi Qafqazın strateji nöqtədə yerləşdiyini bildirib. Onun sözlərinə görə, münaqişələr bölgənin potensialından istifadə etməyə imkan vermir: "Ermənistanın qurulduğu gündən bölgəyə qanunsuzluqdan başqa heç nə gətirmədiyi dünyaya bəllidir. Hücum siyasəti bu gün bu ölkənin siyasətinin əsasını təşkil edir. Ermənistan daxili problemlərindən diqqəti yayındırmaq üçün təxribata əl atır. Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq çərçivəsində həlli üçün qərarlı dəstəyi davam etməkdədir. Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal çəkilməli və BMT TŞ və ATƏT-in qərarlarına əməl etməlidir. Tovuz istiqamətində Ermənistanın təxribatı bu ölkənin regionun inkişafında ən əsas maneə olduğunu ortaya qoyur".

Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov çıxışı zamanı bildirib ki, qütbləşən dünyada Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri xüsusi əhəmiyyət kəsb edir: "Tarixi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində yaranmış münaqişədə Türkiyənin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini yüksək qiymətləndiririk. Hələ 1993-cü ildən Türkiyənin Ermənistanla sərhədləri bağlaması və Azərbaycanın haqlı mövqeyini beynəlxalq təşkilatlarda dəstəkləməsi bizim üçün xüsusi əhəmiyyətlidir. 12 iyul tarixində Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayon istiqamətində Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması və ağır artilleriya ilə mülki və hərbi obyektləri hədəfə alması zamanı Türkiyənin yüksəksəviyyəli rəsmiləri və Türkiyə cəmiyyəti tərəfindən Azərbaycana dəstək göstərilib. Türkiyə ilə əlaqələrin inkişafı Azərbaycan xarici siyasətinin mühüm tərkib hissəsidir". X.Xələfov bildirib ki, iki ölkənin qardaşlıq münasibətləri və bir-birini dəstəkləməsi üçüncü dövlətlərə qarşı nəzərdə tutulmayıb.

Türkiyə Xarici İşlər Nazirliyinin idarə rəhbəri, səfir Yönet Can Tezel qeyri-müəyyən dünyada sabit Türkiyə-Azərbaycan əlaqələrinin çox vacib olduğunu deyib. Onun sözlərinə görə, Tovuz hadisələri zamanı Türkiyənin Suriya və Aralıq dənizində başının qarışıq olduğunu düşünənlər yanıldılar və Türkiyə daim Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edəcək. XİN rəsmisi bildirib ki, Türkiyənin Azərbaycana dəstəyi tək tarixi, mədəni, qardaşlıq əlaqələri baxımından deyil, Azərbaycan həm də haqlı tərəfdir.

BMTM-in şöbə müdiri Cavid Vəliyev çıxışında ikitərəfli əlaqələrin inkişafı ilə bağlı konkret təkliflər irəli sürüb. Onun sözlərinə görə, iki ölkə arasında xarici işlər nazirləri səviyyəsində koordinasiya və dialoq formatı formalaşdırılmalıdır. Həmçinin qarşılıqlı olaraq Türkiyə və Azərbaycan mətbuatında ölkələrin xarici və təhlükəsizlik məsələləri haqqında yazı yazanlar üçün xüsusi yer ayrılmalıdır. O, bununla yanaşı, Türkiyə XİN və Azərbaycan XİN-də gənc diplomatları məlumatlandırmaq üçün kursların təşkilinin vacibliyini qeyd edib. Cavid Vəliyevin fikrincə, Türkiyə və Azərbaycanın qurduğu üçtərəfli - Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan-Türkiyə-İran əməkdaşlıq formatları daha çox işlədilməlidir.

Vebinara sual-cavab sessiyası ilə yekun vurulub.

# Baş Prokurorluğun təqdim etdiyi növbəti videoçarxda nəqliyyat vasitələrinin üzərinə həbs qoyulması halları barədə sual cavablandırılıb

Prokurorluq orqanları dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşyönümlü və onu məmnun edən tədbirləri daim diqqət mərkəzində saxlayır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaş məmnunluğunun və aşkarlığın təmin olunması məqsədilə prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşları maraqlandıran məsələlərin prokurorluq əməkdaşları tərəfindən videoçarxlar vasitəsilə #prokurorluqdanizah həştəqi altında cavablandırılması işi davam etdirilir.

Təqdim olunan növbəti videoçarxda Baş Prokurorluğun Mətbuat xidmətinin prokuroru Aynur Əfəndiyeva prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı "Baş Prokurorluğun yeni yaradılmış Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin fəaliyyət istiqaməti nədən ibarətdir?", "Nəqliyyat vasitələrinin üzərinə həbs hansı qaydada qoyulur?" suallarını cavablandırıb.

Videoçarxı izləməklə həmin sualların cavablarını öyrənmək mümkündür.

# *Milli Məclis Sədrinin birinci müavini:* “Ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə aparılır”

Hazırda ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə aparılır. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib.



Ölkəmizdə korrupsiyaya qarşı mübarizənin iki istiqamətdə aparıldığını qeyd edən komitə sədri bildirib: “Bunlardan birinci preventiv üsullar, yəni, qabaqlayıcı tədbirlər, dövlət orqanlarının fəaliyyətinin şəffaflığının təmin olunması və digər mexanizmlərdir. İkinci istiqamət isə cinayət təqibidir. Son illər ölkəmizdə idarəetmə sahəsində şəffaflığı təmin etmək üçün bir sıra struktur islahatları həyata keçirilib”.

Əli Hüseynli vurğulayıb ki, əgər ictimaiyyəti narahat edən, cəmiyyətə ciddi zərər vuran cinayət hadisələri mövcuddursa, təbii ki, cinayət təqibi həyata keçirilməlidir. “Cinayət yolu ilə əldə olunan vəsaitlər, maddi nemətlər qanunvericiliyə əsasən müsadirə olunmalıdır. Cəmiyyət, vətəndaşlar dövlət başçısının bu istiqamətdə siyasətini dəstəkləyir”, - deyə o bildirib.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İntizam komissiyasının birgə iclası



Sentyabrın 17-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İntizam komissiyasının birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyə Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyasının Əsasnaməsinin layihəsi haqqında məsələnin daxil olduğunu bildirib. Qeyd edib ki, məlum olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyası, Milli Məclisin Daxili Nizamnaməsi, “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Qanun intizam məsələlərini özündə ehtiva edir. Prezident İlham Əliyev VI çağırış Milli Məclisin ilk iclasındakı çıxışında parlamentə bir sıra tövsiyələr vermişdi. Onların bir hissəsi də intizam məsələləri ilə bağlı idi.

Sonra Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyasının Əsasnaməsinin layihəsi haqqında (birinci oxunuş) məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov bildirib ki, 9 maddədən ibarət layihənin hazırlanmasına bu ilin aprel ayında başlanılıb. Burada ümumi müddəalar, intizam komissiyasının təşkili, səlahiyyətləri, komissiyanın iclaslarının aparılması qaydaları, komissiya üzvlərinin hüquqları və vəzifələri, barəsində araşdırma aparılan deputatın hüquqları və vəzifələri, müraciətlərə, təqdimatlara və məlumatlara baxılması qaydası və müddətləri, komissiyanın fəaliyyətinin təmin edilməsi və digər məsələlər əksini tapıb.

İclasda çıxış edən Milli Məclisin deputatları Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Məlahət İbrahimqızı, Nəsib Məhəməliyev, Erkin Qədirli, Səttar Möhbalıyev, Hikmət Məmmədov, Elşən Musayev, Sabir Hacıyev, Azay Quliyev, Vüqar İsgəndərov, Nurlan Həsənov, Məşhur Məmmədov və Əminə Ağazadə Əsasnamə layihəsi barədə fikirlərini bildirib, qeyd və təkliflərini veriblər.

Sonra Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov Əsasnamə layihəsinin hazırlanmasına verdikləri dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya və Sədrin birinci müavini Əli Hüseynliyə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, layihə yüksək səviyyədə hazırlanıb və qabaqcıl ölkələrin təcrübəsi nəzərə alınıb. Komissiya sədri Əsasnamənin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov deputatların səsləndirdikləri fikirlərə münasibət bildirib.

İclasın sonunda Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib



Sentyabrın 17-də Milli Məclisin Mədəniyyət komitəsinin payız sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Qənirə Paşayeva əvvəlcə Milli Məclisin payız sessiyasının başlanması münasibətilə deputatları təbrik edib. Vurğulayıb ki, Azərbaycan rəhbərliyi ölkədə mədəniyyət sahəsinin inkişafına hər zaman xüsusi diqqət və qayğı göstərir. Azərbaycan mədəniyyətinin qorunması və inkişafı sahəsində qanunverici orqan olan parlamentin Mədəniyyət komitəsi üzvlərinin də öhdəsinə mühüm vəzifələr düşür. Q.Paşayeva qeyd edib ki, Milli Məclisin Sədri Sahibə Qafarova da hər zaman Mədəniyyət komitəsinin fəaliyyətinə diqqət göstərir və ciddi dəstək verir.

O, qanunvericilik işlərini səmərəli qurmaq, bu sahədə mövcud olan problemləri daha dərindən öyrənmək üçün payız sessiyasındakı bu ilk iclasa Mədəniyyət nazirinin birinci müavini, həmçinin Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimovun, mədəniyyət sahəsində çalışan QHT-lərin rəhbərlərinin dəvət olunduğunu bildirib.

Sonra iclasda Milli Məclisin yaz və növbədənkənar sessiyaları dövründə Mədəniyyət komitəsində görülən işlərin hesabatı dinlənilib. Qənirə Paşayeva məlumat verib ki, hesabat dövründə 6 iclas keçirilib, 14 məsələ müzakirə edilib. Həmin məsələlərdən 13-ü qanun layihəsi olub. Komitədə birinci, ikinci və üçüncü oxunuşda müzakirədən keçən qanun layihələrinin hamısı Milli Məclisdə qəbul olunub.

Parlamentin yaz və növbədənkənar sessiyaları ərzində komitənin ünvanına daxil olan 622 məktub, təklif, ərizə və şikayətin 554-ü araşdırılmaq üçün müvafiq təşkilatlara göndərilib. Bütün yay boyu fəaliyyət göstərən komitə üzvləri yerlərdə 300-ə yaxın ziyalı ilə görüşüb, mədəniyyət sahəsində mövcud problemləri, çatışmazlıqları öyrəniblər. Deputatlar, həmçinin seçicilərin qayğıları ilə maraqlanıblar.

Hesabat dinlənildikdən sonra iclasda Mədəniyyət nazirinin birinci müavini, həmçinin Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov çıxış edərək mədəniyyət sahəsinin və nazirliyin qarşısında duran vəzifələrdən söhbət açıb. Son aylarda görülən işlər və Mədəniyyət Nazirliyinin perspektiv planları barədə ətraflı məlumat verən A.Kərimov strateji sahə olan milli mədəniyyətin qorunması və inkişafı, ölkə və dünya miqyasında təbliği və təşviqi, müasir dövrün tələbinə uyğun olaraq gəlir gətirən sahəyə çevrilməsi üçün mütəxəssislərin və vətəndaşların təkliflərinin nəzərə alındığını deyib.

Anar Kərimov bir sıra məsələlərin həlli üçün Milli Məclisin dəstəyinə ehtiyac olduğunu vurğulayıb, tətbiq edilməsi nəzərdə tutulan yeniliklərin hüquqi bazaya istinadən tənzimlənməsi vacibliyini diqqətə çatdırıb.

Daha sonra komitədə geniş müzakirələr aparılıb. Deputatlar Nizami Cəfərov, Novruzəli Aslanov, Ülviyyə Həmzəyeva, Əziz Ələkbərli, Ülviyyə Ağayeva rəy və təkliflərini bildiriblər.

Mədəniyyət komitəsinin parlamentin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlərin hesabatı məqbul sayılıb.

Komitənin 2020-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı barədə məlumat verən Qənirə Paşayeva bildirib ki, qarşıdakı sessiyada müxtəlif qurumlardan komitəyə daxil olacaq qanun layihələri ilə yanaşı, “Kinematoqrafiya haqqında” və “Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” qanun layihələri də müzakirəyə çıxarılacaq. Həmçinin komitədə müxtəlif mövzularda bir sıra dinləmələr keçiriləcək.

Fikir mübadiləsinin yekununda iş planı təsdiqlənib.

Komitədə baxılan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Milli Məclisin İnsan hüquqları komitəsi payız sessiyası üçün iş planını təqdim edib



Sentyabrın 17-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Zahid Oruc iclası açaraq yeni sessiya münasibətilə deputatları təbrik edib, onlara gələcək işlərində müvəffəqiyyətlər arzulayıb.

Bildirilib ki, gündəliyə komitənin 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabat, 2020-ci ilin payız sessiyası üçün iş planının layihəsi, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi (birinci oxunuş) daxil edilib.

Komitə sədri bildirib ki, cari ilin mart ayından dünyada pandemiya elan edilib. Bu səbəbdən Milli Məclis, o cümlədən komitələr öz fəaliyyətini qeyri-standart şəraitdə davam etdirib.

Z.Oruc qeyd edib ki, 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində İnsan hüquqları komitəsinin 7 iclası keçirilib, 14 məsələ müzakirə olunub. Komitə tərəfindən 7 qanun layihəsi Milli Məclisin müzakirəsinə tövsiyə edilib və parlament tərəfindən qəbul olunub. Bu müddətdə müxtəlif mövzularda dinləmələr təşkil edilib, insan haqları üzrə QHT-lərlə görüşlər keçirilib, bir sıra vacib məsələlər müzakirə olunub. “Eyni zamanda, iyulun 12-də Ermənistanın Azərbaycanın Tovuz rayonu ərazisində ölkəmizə təcavüzü və bu aktın beynəlxalq məkanda qiymətləndirilməsi ilə bağlı komitə öz üzərinə düşən işləri yerinə yetirməyə çalışıb. Bununla əlaqədar 50-dən artıq ölkənin parlamentlərinə müraciətlər göndərdik. İnsan haqları ilə bağlı istər ABŞ Dövlət Departamenti, istərsə də digər qurumlar çərçivəsində müxtəlif subyektiv fikirlərə qarşılıq olaraq məsələnin obyektivliyini şərh edən sənədləri göndərməyə çalışdıq”, - deyə komitə sədri bildirib.

O diqqətə çatdırıb ki, sessiya dövründə komitəyə 204 sənəd daxil olub. Komitənin rəhbərliyi tərəfindən 117 vətəndaşın onlayn qaydada qəbulu keçirilib. Layihə və ərizələrin baxılması üçün komitə adından müxtəlif ünvanlara 105 məktub göndərilib.

Milli Məclisin fəaliyyəti ilə bağlı fikirlər səsləndirən Zahid Oruc bildirib ki, pandemiya dövründə parlamentdə iş zamanın çağırışlarına uyğun qurulub. Spiker Sahibə Qafarovanın rəhbərliyi ilə bu sahədə böyük dəyişikliklər baş verib. Onlayn platformalarda fəaliyyətin təşkili öz müsbət nəticələrini göstərib. Bütün sənədlərin elektron dövriyyəsi təşkil olunub. Bu, sənədlərlə operativ işləməyə imkanlar yaradıb. Milli Məclisin Aparatında, İşlər idarəsində sistemlilik, intizam, işə münasibətdə çeviklik və digər müsbət keyfiyyətlər müşahidə olunub.

Sonra Zahid Oruc komitənin 2020-ci ilin payız sessiyası üçün 20 bənddən ibarət iş planının layihəsini təqdim edib. Diqqətə çatdırıb ki, sessiya ərzində Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisin deputatlarının, Ali Məhkəmənin, Baş Prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələrinə, Azərbaycan Respublikası qanunlarına dəyişikliklər və əlavələr edilməsi haqqında və digər sənədlərə baxılması nəzərdə tutulub.

Bildirilib ki, bu müddətdə insan hüquqlarına dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı müvafiq qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə fikir mübadiləsinin, Milli Məclis və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında Anlaşma Memorandumundan, habelə Milli Məclislə Mətbuat Şurası arasında əməkdaşlıq haqqında Memorandumdan irəli gələn məsələlərə həsr olunmuş tədbirlərin keçirilməsi, Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş soyqırımı, təcavüz, etnik təmizləmə və digər beynəlxalq cinayətlərin cəzalandırılmasına nail olunması istiqamətində fəaliyyətin həyata keçirilməsi planlaşdırılır.

Qeyd edilib ki, iş planına İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) ilə Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti, birgə fəaliyyət formaları və istiqamətləri haqqında vaxtaşırı müzakirələrin aparılması, insan hüquqları sahəsində maarifləndirmə tədbirlərinin keçirilməsində komitə üzvlərinin iştirakının təmin olunması kimi məsələlər daxil edilib.

Eyni zamanda, komitə tərəfindən müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş ictimai dinləmənin, Ali Məhkəmə, Ədliyyə Nazirliyi, Məhkəmə Hüquq Şurası, Konstitusiya Məhkəməsi, insan hüquqları profilli QHT-lərlə görüşlərin və digər tədbirlərin keçirilməsi də nəzərdə tutulub.

Müzakirələr zamanı deputatlar Hikmət Məmmədov, Razi Nurullayev, Tahir Kərimli, Bəhruz Məhərrəmov, Naqif Həmzəyev, Elman Nəsirov, Jalə Əhmədova, Tural Gəncəliyev, Elşad Mirbəşir oğlu hesabat və iş planı barədə fikirlərini səsləndirib, bəzi təkliflər veriblər.

Komitənin 2020-ci il yaz və növbədənkənar sessiyaları ərzində fəaliyyəti müsbət qiymətləndirilib, payız sessiyasının iş planı təsdiqlənib.

Sonra iclasda “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi (birinci oxunuş) Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin əməkdaşları Sarvan Sadıqov və Seymur Əşrəfli tərəfindən təqdim edilib.

Bildirilib ki, qanun layihəsi “Gənclər siyasəti haqqında” qanunda dəyişiklik edilməsi barədə” 2019-cu il 5 mart tarixli və “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”, “Gənclər siyasəti haqqında”, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında”, “Könüllü fəaliyyət haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Reklam haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” 2020-ci il 8 may tarixli qanunlara uyğun olaraq hazırlanıb.

“Uşaq hüquqları haqqında” qanuna edilən düzəlişlə bağlı bildirilib ki, sənədin 9-cu maddəsinin üçüncü hissəsi yeni redaksiyada verilib. Həmin hissədə deyilir ki, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının uşaqlara satılması, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, uşaqların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının, toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı olan, uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

Qeyd olunub ki, Əmək Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində də oxşar məzmunlu və dəqiqləşdirmə xarakterli düzəlişlər nəzərdə tutulur.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# TÜRKPA-da səhiyyə məsələləri üzrə parlament komitələri rəhbərlərinin iclası keçirilib

Sentyabrın 17-də Türkdilli Ölkələrin Parlament Assambleyasına (TURKPA) üzv olan parlamentlərin səhiyyə məsələləri üzrə komitə rəhbərlərinin videokonfrans formatında onlayn görüşü keçirilib. Toplantı “COVID-19 pandemiyası: təsirləri və gələcəyə baxış” mövzusuna həsr edilib.

AZƏRTAC xəbər verir ki, tədbirə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan parlamentlərinin səhiyyə məsələləri üzrə komitələrinin sədrləri, deputatları və TÜRKPA Katibliyinin nümayəndələri qatılıblar. İclasa moderatorluğu Türkiyə Böyük Millət Məclisinin Səhiyyə, ailə, əmək və sosial məsələlər komitəsinin sədri Recep Akdağ edib.

Görüşün açılış hissəsində parlament komitələrinin sədrləri, TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov və Qırğızıstan Səhiyyə nazirinin müavini Nurbolot Usenbayev çıxış ediblər. Sonra komitə üzvləri mövzu ilə bağlı fikirlərini bildiriblər.

İclasda Milli Məclisin Səhiyyə komitəsinin, TÜRKPA-nın Ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri, akademik Əhliman Əmiraslanov çıxış edərək Azərbaycanda koronavirusla mübarizə sahəsində görülən işlər və əldə edilən nailiyyətlərdən söhbət açıb.

Onlayn görüşdə iştirakçılar qlobal COVID-19 pandemiyasının ölkələrin iqtisadiyyatına, xüsusən də səhiyyə sektoruna təsirlərindən danışıb, ölkələrində həyata keçirilmiş mübarizə tədbirləri barədə məlumat veriblər.

Sonra tədbirdə virusla mübarizə istiqamətində gələcək əməkdaşlığın perspektivləri, uğurlu metod və mexanizmlərə dair qarşılıqlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramına üzv ölkələrin iclasında təmsil olunub

Sentyabrın 17-də videokonfrans formatında öz işinə başlayan Asiya İnkişaf Bankının (ADB) Rəhbərlər Şurasının 53-cü İllik Toplantısı çərçivəsində Azərbaycanın da daxil olduğu Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramının (CAREC) “COVID-19 pandemiyası şəraitində: Çıxarılan nəticələr və inkişaf yolu” mövzusunda iclası keçirilib.

Maliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, CAREC proqramına üzv ölkələrdən yüksəkvəzifəli dövlət və hökumət rəsmilərinin qatıldığı iclasda Azərbaycanın Maliyyə naziri, ADB-nin Rəhbərlər Şurasının üzvü Samir Şərifov və İqtisadiyyat nazirinin müavini Rövşən Nəcəf də iştirak edib. İclasda COVID-19 pandemiyasının yaratdığı qeyri-müəyyənliyin qlobal və regional ticarətə mənfi təsirlər göstərdiyi bir vaxtda regional əməkdaşlığın təşviq edilməsi, üzv ölkələr arasında ticarət dövriyyəsinin artırılması, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, postpandemiya dövründə inkişafın dəstəklənməsinə dair fikir mübadiləsi aparılıb.

Asiya İnkişaf Bankı tərəfindən 2001-ci ildə təsis edilmiş Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı özündə 11 ölkəni (Azərbaycan, Əfqanıstan, Çin, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistan), 6 çoxtərəfli maliyyə institutunu (Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, BMT-nin İnkişaf Proqramı və Dünya Bankı) tərəfdaşlıq çərçivəsində özündə birləşdirir. Proqramın əsas məqsədi əməkdaşlıq vasitəsilə sürətli iqtisadi inkişafın və yoxsulluğun azaldılmasına nail olmaqdır.

# O, tarixi bir gün idi...

## 18 il əvvəl sentyabrın 18-də BTC-nin təməli qoyulmuşdur




Əvvəli 1-ci səh.

Gürcüstanın və Türkiyənin ozamankı prezidentləri, ABŞ-ın Energetika naziri, digər ölkələrdən gəlmiş mötəbər qonaqlar, Azərbaycanda çalışan beynəlxalq şirkətlərin səlahiyyətli nümayəndələri müstəqil ölkəmizin həyatında baş verən tarixi hadisənin şahidi olurdular. Bütün dünyanın nəzərləri Bakıya dikilmişdi.

Həmin gün Ulu Öndər Heydər Əliyev özünün şah əsərlərindən biri olan BTC-nin təməlini qoyurdu.

Tədbiri Azərbaycanın kütləvi informasiya vasitələrinin nümayəndələri ilə yanaşı, çoxsaylı xarici jurnalistlər də işıqlandırırdı. Bu qeydlərin müəllifinə də həmin tarixi hadisəni görmək, Ümummilli Liderin tədbirdəki parlaq nitqini dinləmək xoşbəxtliyi nəsib olub. Ulu Öndərin hər fikri, hər müddəası, BTC, neft-qaz layihələri, Azərbaycanın bu layihələrdəki tərəfdaşları haqqında dedikləri həmişəlik yaddaşımızda qalıb.

Ümummilli Lider BTC kəmərinin çəkilməsini xalqımızın və regionun gələcəyi üçün görülən mühüm işlərdən olduğunu dedi. Onun təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət kəsb etdiyini vurğuladı. Bu boru xəttini Azərbaycanı digər ölkələrlə sıx birləşdirən polad kəmər adlandırdı.

Ümummilli Lider böyük uzaqgörənlik və siyasi intuisiya ilə qarşıda hələ bir çox çətinliklərin olacağını da bilirdi. Bununla belə BTC-nin bütün maneələrdən yenə də keçə biləcəyinə əmin idi. Ona görə də təməlqoyma mərasimində ölkənin daxilində və xaricində bu layihənin əleyhinə çıxan bədxah qüvvələrə kəmərin bünövrəsinin möhkəm olduğunu böyük inam və qətiyyətlə xatırlatdı: “Bakı-Tbilisi-Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir!”

O vaxt BTC-nin reallaşması ilə bağlı bir çox maneələr arxada qalmış olsa da, hələ qarşıda həllini gözləyən xeyli problem var idi. Belə ki, az sonra bir sıra qeyri-hökumət təşkilatları BTC-nin Gürcüstandakı “Borjomi” mineral su mənbəyinə guya ekoloji ziyan gətirəcəyi fikrini ortaya atdı. Onlar layihənin ƏMSSTQ (Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi) sənədlərinin imzalanmasını gecikdirməyə cəhd edirdilər. BTC-nin əleyhdarlarından dəstək alan qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq maliyyə qurumlarının ofisləri qarşısına toplaşır və işlərin irəliləməsinə əngəl törətməyə səy göstərirdilər. Beləliklə, 2003-cü ilin əvvəlində BTC-nin tikintisinin maliyyələşdirilməsində böyük müşküllər yarandı.

Həmin ilin fevralında ABŞ-da keçirilən “Şərq-Qərb enerji dəhlizi reallıqdır” beynəlxalq konfransında iştirak edən Ümummilli Lider Heydər Əliyev beynəlxalq maliyyə institutlarının rəhbərləri ilə görüşdü, söhbətlər apardı və bu, öz müsbət nəticəsini verdi.

2004-cü ilin fevral ayında isə Bakıda, “Gülüstan” sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və problem tamamilə həll olundu.

2005-ci ilin mayında kəmərə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. 2006-cı il mayın 28-də BTC-nin daşıdığı neft Ceyhan terminalına çatdı. Həmin il iyulun 13-də kəmərin tam bir sistem kimi işə düşməsi münasibətilə Türkiyədə təntənəli mərasimlər keçirildi.

BTC öz müəllifinin - Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyaraq 14 ildən çoxdur fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir. Hazırda kəmərə Xəzərin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” yataqlarının nefti və “Şahdəniz”in kondensatı vurulur. Xəttə həmçinin müəyyən həcmdə Türkmənistan, Qazaxıstan və Rusiya nefti də qoşulur.

BTC gələcəyə hesablanmış nəhəng layihədir. O, Azərbaycanın qarşısında yeni üfüqlər açmış, ölkə üçün geniş iqtisadi imkanlar yaratmışdır. BTC-nin gətirdiyi gəlirlər Azərbaycanda bir sıra sosial məsələlərin qısa müddətdə öz həllini tapmasında, ölkənin dünya iqtisadiyyatına inamla inteqrasiya etməsində böyük rol oynamışdır. Prezident İlham Əliyevin dediyi kimi: “Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq”.

İndi Azərbaycanın karbohidrogen ehtiyatlarının ixracının diversifikasiyası üçün geniş imkanlar yaranıb. “Şahdəniz” yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində çıxarılan qaz Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə 2006-cı ildən Gürcüstana və növbəti ildən CQBK-ya birləşən əlavə borularla Türkiyəyə çatdırılır. Səngəçaldan Ərzurumadək uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

2018-ci ildən Türkiyə TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) vasitəsilə “Şahdəniz-2” qazını da alır. Türkiyənin ərazisi ilə uzanan 1850 kilometrlik bu kəmər Yunanıstan sərhədində TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) birləşib. Yaxın aylarda qazın Avropaya da nəqlinə başlanacağı gözlənilir.

Prezident İlham Əliyev bütün bu layihələrin başlanğıcında BTC-nin dayandığını dəfələrlə qeyd etmişdir: “Təbii ki, bu gün “Cənub qaz dəhlizi” haqqında danışarkən biz 1990-cı illərdə görülmüş işləri mütləq qeyd etməliyik. Çünki əgər o vaxt Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsə idi, onda əlbəttə ki, bu dəhliz də yaranmazdı. Bakı-Tbilisi-Ceyhan kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi və enerji dəhlizini formalaşdırdı. İndi Azərbaycan qazı həmin dəhliz vasitəsilə dünya bazarlarına çıxarılacaq. Demək olar ki, o dəhlizlərin coğrafiyası böyük dərəcədə eynidir və bu dəhliz hazırda nəqliyyat dəhlizinə çevrilir. Çünki biz neftdən əldə olunan gəlirləri nəqliyyat infrastrukturuna yönəldərək çox ciddi nəqliyyat bağlantıları yaratmışıq”.

Məhz bütün bu səbəblərdən beynəlxalq aləm BTC-nin getdikcə daha mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır. Kəmərin operatoru olan BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyir: ”Bu boru kəmərinin inşası nəhəng mühəndis-texniki nailiyyətdir. Əminliklə deyə bilərəm ki, BTC-nin fəaliyyəti dünyada ən təhlükəsiz və ekoloji cəhətdən zərərsiz boru kəməri əməliyyatlarından biridir. Biz hamımız BTC-nin uğur hekayəsi ilə qürur duymalıyıq. Hamımız dedikdə mən layihə başlandığı andan etibarən üç ölkədə onun icrasına cəlb edilmiş minlərlə insanı - işçi qüvvəsini, icmaları, şirkətləri, regional və beynəlxalq hökumətləri, tərəfdaşları və öz işçi heyətimizi nəzərdə tuturam”.

...Səngəçaldan başlayaraq Azərbaycan-Gürcüstan sərhədinədək BTC ölkəmizin 13 bölgəsindən - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçir. Bu istiqamətdə hərəkət edənlər yol kənarında, çox da hündür olmayan dirəklər üstündəki lövhələrdə getdikcə artan rəqəmlər görürlər. Bu, BTC-nin torpağın altında keçdiyi kilometrlərin sayıdır. 18 il əvvəl bu düşərli kəmərin təməlinin qoyulduğu nöqtədən başlanan yollar şaxələnərək indi Azərbaycanın “qara qızıl”ını və mavi yanacağını daha uzaq bazarlara aparır, şöhrətini daha uzaq yerlərə çatdırır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Əlibəyli və Ağdam kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistanda xaotik vəziyyət: *dövlət borcu və işsizlik artır*

## Pandemiya fonunda işğalçı ölkənin iqtisadi tənəzzülü daha da sürətlənir

Əvvəli 1-ci səh.

Ermənistanın Maliyyə Nazirliyinin cari ilin birinci yarısının nəticələri üzrə açıqladığı statistik göstəricilərə əsasən, bu ölkənin ümumi dövlət borcu 7 milyard 721 milyon ABŞ dollarına çatıb. Nəzərə alaq ki, işğalçı ölkənin cari il üçün dövlət büdcəsinin gəlirləri 1,7 trilyon dramdır (3,5 milyard dollar). Bu isə o deməkdir ki, xarici borc dövlət büdcəsindən 2 dəfədən çoxdur. Dövlət borcunun da 5 milyard 984 milyon dollarlıq hissəsi xarici borcun payına düşür.

Çiçəklənən Ermənistan Partiyasının sədri Qaqik Sarukyan İcevan şəhərində yerli sakinlərlə görüşündə bildirib ki, hökumətin binası qarşısında hər gün etiraz aksiyaları keçirilir: “Dövlət borcu artır. Bu pulları hara xərcləyiblər? Hakimiyyətdəki məsul şəxslər təcrübəli insanlar olmalı, başçılıq etdikləri sahəni bilməlidirlər. Səlahiyyətli şəxslər insanların sosial vəziyyətini yüngülləşdirə bilsəydi, problemlər aradan qalxardı”. Q.Sarukyan daha sonra ölkədəki hazırkı vəziyyətin dəhşətli dərəcədə ağır olduğunu və daha da ağırlaşacağını vurğulayıb.

Çiçəklənən Ermənistan Partiyasından olan deputat Mikael Melkumyan da ölkədəki durumu tənqid edib. Bildirib ki, Ermənistan iqtisadiyyatı çox bərbad vəziyyətdədir: “Bizim aclıqdır deməyimiz mağazalarda bu və ya başqa ərzaq mallarının olmaması demək deyil. Həmin malları almaq üçün əhalinin pulu yoxdur. İstənilən iş adamı məhsul idxal edə bilər. Ancaq əhalinin tələbatı ötən illə müqayisədə 15-20 faiz azalıb. Daha doğrusu, əhali pulsuzluqdan ehtiyacı olan malları əldə edə bilmir”.

Dünyada nüfuzlu Dövlət Borcunun İdarəedilməsi Şəbəkəsinin (PDMN) Ermənistanın maliyyə təhlükəsizliyinin təhdidlə üzləşməsi barədə paylaşdığı materialda da qeyd olunub ki, hazırda Ermənistanın xarici borcu maliyyə təhlükəsizliyi üzrə bütün normaları aşıb və bu ölkənin ÜDM-in 42 faizi civarındadır. Qeyd edək ki, ümumi dövlət borcunun ÜDM-ə nisbəti son dövrlər davamlı olaraq artmaqdadır. Belə ki, 2015-ci illə müqayisədə ümumi dövlət borcunun ÜDM-ə nisbəti 48 faizdən 54 faizə, xarici dövlət borcunun ÜDM-ə nisbəti isə 40 faizdən 42 faizədək artıb. Dünya Bankı dövlət borcunun ÜDM-ə nisbəti göstəricisinin qarşıdakı dövrdə daha da pisləşəcəyini və ilin sonuna 57,2 faizə çatacağını proqnozlaşdırıb.

Ermənistanda qeyd olunur ki, Paşinyanın başçılıq etdiyi hökumət ölkədəki iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün heç bir addım atmır. Baş nazir təyin olunduğu gün Ermənistandakı iqtisadi vəziyyəti “çox ağır” qiymətləndirən Paşinyan real iş görməkdən uzaqdır. Cəmiyyət xəstədir, ac qalıb. Ölkə boşalır - imkanı çatan Ermənistanı tərk edir. Bu vəziyyətə qarşı mübarizə aparmaq, islahatlar həyata keçirmək, korrupsiyanın kökünü kəsmək əvəzinə Ermənistan hakimiyyəti populist çıxışlarla məşğuldur.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC yeni istiqrazlar buraxacaq

Ölkənin qeyri-neft sektorunun ən böyük ixracatçılarından olan “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) ilk dəfə olaraq dövriyyəyə istiqrazlar buraxacaq. “AzerGold” QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, cəmiyyət tərəfindən dağ-mədən sektorunun stabil inkişafı və dünya bazarlarında qızıl və gümüşün qiymətinin kəskin artımı fonunda yüksək mənfəətli yeni istiqrazların tədavülünə hazırlıq görülür.




Ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində mövcud makroiqtisadi sabitlik və maliyyə sektorunun dayanıqlılığı yerli şirkətləri yeni maliyyə alətlərinin buraxılışına təşviq edir. Yüksək səmərə ilə fəaliyyət göstərən yerli qiymətli kağızlar bazarının mövcudluğu yeni istiqrazların tədavülə buraxılmasına əlverişli şərait yaradır.

Belə ki, geniş xalq kütləsinin əldə edə biləcəyi “AzerGold” istiqrazlarının nominal dəyəri 100 ABŞ dolları, illik faiz dərəcəsi isə 4 faiz təşkil edir. İstiqrazların tədavül müddətinin 3 il olması, istiqraz sahiblərinə faiz dərəcələrinin isə 3 aydan bir ödənilməsi planlaşdırılır. Emissiyanın ümumi həcmi 20,000,000 ABŞ dolları təşkil etməsi gözlənilir. İstiqrazların satışı kütləvi təklif üsulu ilə Bakı Fond Birjası vasitəsilə həyata keçiriləcək.

Maliyyə bazarına təklif edilən istiqrazlar daim inkişaf edən qiymətli metalların hasilatı sahəsinin və qeyri-neft sənayesinin liderlərindən biri olan “AzerGold”un maliyyə mənbələrinin şaxələndirilməsi və yeni layihələrin icrasına yönəldilməsi ilə eyni zamanda ölkənin qiymətli kağızlar bazarının inkişafına töhfə vermək, eləcə də vətəndaşlara mənfəətli və etibarlı investisiya imkanları yaratmağa xidmət edəcək. Bu da öz növbəsində vətəndaşların milli iqtisadiyyat və dağ-mədən sənayesinin inkişafında pay sahibi olmağa əlverişli fürsət yaradacaq.

# Azərbaycan COVID-19-la uğurla mübarizə aparır

## Bu mübarizədə əldə edilən müsbət tendensiyanın davamlı olması isə vətəndaş məsuliyyətindən asılıdır

Əvvəli 1-ci səh.

### Ölkədə epidemioloji vəziyyətə uyğun addımlar atılır

Azərbaycan virusun üzə çıxdığı ilk dövrlərdən etibarən ona qarşı sistemli işlər həyata keçirib. Hazırda da koronavirus pandemiyası ilə mübarizə ilə bağlı ardıcıl tədbirləri davam etdirir.

Səmərəli maarifləndirmə, müvafiq tibbi infrastrukturun yaradılması, profilaktika və müalicə məsələlərinin keyfiyyətli şəkildə həll olunması, xüsusi karantin rejiminin tətbiqi və mərhələli qaydada məhdudlaşdırıcı və yumşaldıcı tədbirlərin həyata keçirilməsi, vətəndaşların məsuliyyəti, dövlət-vətəndaş həmrəyliyi uğurlu nəticələr əldə olunmasına rəvac verib.

Hazırda ölkəmizdə COVID-19-a yoluxma nəzarətolunan həddə düşüb. Daimi olaraq ölkədə və ayrı-ayrı regionlarda epidemioloji vəziyyət ətraflı öyrənilir, təhlil olunur, bütün risklər müəyyənləşdirilir və onların qarşısının alınması üçün profilaktik tədbirlər həyata keçirilir.

Epidemioloji vəziyyətin təhlilinə əsasən, Nazirlər Kabineti yanında Operativ Qərargah məhdudlaşdırma və ya yumşaldılma ilə bağlı qərarlar qəbul edir.

Qəbul olunan qərarlara əsasən, ötən ayın 5-dən mərhələli şəkildə sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılmasına, xeyli məhdudiyyətlərin aradan qaldırılmasına başlanılıb.

Ən ümdəsi isə bütün təhsil ictimaiyyətinin intizarla gözlədiyi həmin vacib qərar da verilib, yəni ölkə üzrə bütün təhsil müəssisələri pandemiya şərtlərinə uyğunlaşdırılmış formada fəaliyyətə başlayıb.

Eyni zamanda ölkədəki mövcud sanitarr-epidemioloji vəziyyətə uyğun olaraq bir sıra məhdudiyyətlər saxlanılıb.

### Bir sıra məhdudiyyətlər qüvvədədir

Belə ki, Nazirlər Kabineti sentyabrın 30-dək ölkə üzrə xüsusi karantin rejimi tətbiq edilmiş ərazidə, yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxış, ölkənin şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımaları, dövlət orqanlarında (qurumlarında) vətəndaşların yerində qrup və fərdi qaydada qəbulu qadağan edilib.

Eyni zamanda dəfn mərasimləri istisna olmaqla, dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsi, bütün kütləvi tədbirlərin, o cümlədən mədəni-idman tədbirlərinin keçirilməsi (tamaşaçıların iştirakı olmadan açıq havada idman yarışlarının oyunlarının keçirilməsi istisna olmaqla), tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkili, ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin (yaxın qohumlar, yəni ata-ana, nənə-baba, uşaqlar və bacı-qardaşlar istisna olmaqla) 10 nəfərdən artıq qruplarda cəmləşməsi də məhdudiyyətlər arasındadır.

Əlavə olaraq sərtləşdirilmiş xüsusi karantin rejimində Bakı, Sumqayıt şəhərlərinin və Abşeron rayonunun ərazisində iri ticarət mərkəzlərinin fəaliyyətinin dayandırılması, ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda müştərilərə saat 00:00-dan 09:00-dək yerində xidmətin dayandırılması, qəlyan avadanlıqlarından istifadənin və hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmağın qadağan edilməsi, çimərliklərin ərazisində hovuzların, su attraksionlarının və idman oyunu yerlərinin fəaliyyəti qadağalar arasındadır.

Həmçinin, qərarda həftəsonları ictimai nəqliyyatın hərəkətinin və Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması da nəzərdə tutulur.

### Postpandemiya dövrünə də hazır olmalıyıq

O da gözləniləndir ki, qabaqlayıcı və effektiv formada həyata keçirilən vacib tədbirlər sayəsində yuxarıda sadalanan məhdudiyyətlər də tezliklə aradan qaldırılacaq.

Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı zamanı Prezident İlham Əliyev videoformat formasındakı çıxışı zamanı səsləndirdi ki, postpandemiya dövrünə də hazır olmalıyıq və bununla bağlı müvafiq göstərişlər verilibdir: “Postpandemiya dövrü nə vaxt başlayacaq, bunu hələ ki heç kim deyə bilmir. Ancaq dünyada gedən araşdırmalar, tədqiqatlar, peyvəndlərin üzərində işin aparılması ümidverici siqnallar verir. Onu da bildirməliyəm ki, biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq. Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq”.

Prezident onu da vurğuladı ki, peyvənd tətbiq olunana qədər addımlarımızı mövcud vəziyyətə uyğun atmalıyıq: “İlk günlərdən biz bunu etmişik. Bu altı ay ərzində məhdudlaşdırıcı tədbirlərin sərtləşdirilməsi, eyni zamanda, yumşalma addımları atılmışdır və təqribən iyul ayının ortalarından başlayaraq müsbət dinamika artıq özünü büruzə verdi. Belə olan halda, əlbəttə ki, biz yumşalma addımlarımıza da başladıq və təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatmışdır. Əgər müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, onda əminəm ki, bundan sonra da yumşalma tədbirləri görüləcəkdir”.

Sübut olunmuş reallıqdır ki, virusla mübarizədə əldə olunan müsbət tendensiyanın davamlı olması və tezliklə ölkəmizdə normal həyata dönüşün əldə olunması isə, həm də birbaşa vətəndaş məsuliyyətindən asılıdır. Buna görə də pandemiyanın şərtlərinə və qoyulan qaydalara riayət edərək koronavirusun yayılmasına, yeni yoluxma nöqtələrinin yaranmasına imkan verməməliyik.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Azərbaycanda koronavirus infeksiyasından 140 nəfər sağalıb, 119 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 140 nəfər müalicə olunaraq sağalıb, 119 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 777 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 36 min 289 nəfər müalicə olunaraq sağalıb, 571 nəfər vəfat edib. Aktiv xəstə sayı 1917 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 35 min 286 test aparılıb. Dünənki test sayı isə 7601-dir.




# Şəkidə “Bazar” adlanan ərazidə koronavirus infeksiyasına kütləvi yoluxma faktı qeydə alınıb

Şəkidə “Bazar” adlanan ərazidə koronavirus infeksiyasına kütləvi yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, həmin ərazidə sentyabrın 1-dən bugünə qədər götürülən test nümunələrinin 13-də koronavirus testi pozitiv olub. Hazırda məsələ ilə bağlı araşdırma aparılır. Epidemioloji vəziyyət barədə ictimaiyyətə əlavə məlumat veriləcək. Şəkidə epidemioloji vəziyyətin stabilləşdirilməsi istiqamətində profilaktik və əks-epidemik işlər aparılır.

Mövcud vəziyyətdə infeksiya ocağının bazar olduğu nəzərə alınaraq, yaxın günlərdə profilaktik dezinfeksiya işləri məqsədilə bazarın müvəqqəti bağlanması məsələsinə baxıla bilər.

# Minnətdarlıq abidəsi

1941-1945-ci illər müharibəsi dünya tarixinin ən qanlı savaşı idi. Hitlerçilər ildırımsürətli “Barbarossa” planına görə cəmi 3 ay ərzində SSRİ-nin Avropa hissəsini tam tutmalı idi. Plan alınsaydı, tərəqqipərvər bəşəriyyət addım-addım faşizmin dəhşətli caynaqlarının əsarətinə düşəcəkdi. On minlərlə adam yalnız milli mənsubiyyətinə görə ölümə məhkum ediləcəkdi.



Aradan uzun illər keçəndən sonra bəzi məsələlərə baxış bucaqları dəyişir. Bu, təbiidir. Yeni rəylər, iddialar formalaşır. Bunu Hitler Almaniyasının SSRİ-yə hücumuna, faşizm üzərində qazanılmış qələbəyə, hətta Böyük Vətən müharibəsi adına münasibətdə də görürük. Kimin necə düşünməsindən asılı olmayaraq bu müharibə bəşəriyyətin aydın gələcəyini zülmətə boyamaq istəyindən irəli gəlmişdi. Sonda aydınlıq zülmətə, işıq qaranlığa qalib gəldi. Və bu qələbə həm də yüz minlərlə Azərbaycan övladının canı-qanı hesabına əldə edildi.

...Onlar bu müharibədə Azərbaycan adından vuruşurdular. Təkcə keçmiş SSRİ-ni deyil, ümumilikdə, dünyanı və onun bir parçası kimi, Azərbaycanı da faşizm bəlasından qoruyurdular. Bu, bütün dünyanı özünə vətən bilənlərin apardığı bir savaş idi. Ona görə də Böyük Vətən müharibəsi anlayışı tarixin bütün dövrlərində öz dəyərini, əhəmiyyətini qoruyur.

Avqustun 30-da Rusiya Federasiyasının Rostov vilayətində “Sambek yüksəklikləri” - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı oldu. Müharibə veteranlarının və ləpirçilərin təşəbbüsü ilə yaradılmış muzey Taqanroq şəhəri yaxınlığındakı Sambek kəndi ətrafında vaxtilə ağır döyüşlərin baş verdiyi böyük bir ərazini əhatə edir.

Yada salaq ki, belə bir hərbi-tarixi muzey kompleksinin inşası hələ 2014-cü ildən planlaşdırılırdı. Sadəcə olaraq axtarış zamanı ərazidə 59 mərminin tapılması təməlqoyma mərasimini bir qədər yubandırmışdı. Göründüyü kimi, inşaat prosesləri geridə qalıb və yeni hərbi-tarixi muzey kompleksi artıq ziyarətçilərini qəbul etməyə başlayıb.

Hərbi-tarix muzeyi İnformasiya-Sərgi Mərkəzi, balaca kilsə, amfiteatr, alma bağı da daxil olmaqla, 8 açıq məkandan ibarətdir. Burada hitlerçilərin istehkam maketləri də qurulub. Kompleksdə həm veteranların ailə arxivlərindən, həm də döyüş meydanından toplanan minlərlə artefakt nümayiş olunur. Muzeyin yaradılması və fəaliyyətində ən müasir texnologiyaların tətbiqinə geniş yer verilib.

Yeni hərbi-tarixi muzey kompleksinin açılışı ilə bağlı Rusiyanın “Rossiya-24” və “Rossiya-1” televiziya kanallarında hazırlanmış reportajlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsinə xüsusi yer verildi. Bu da təsadüfi deyil. “Sambek yüksəklikləri” hərbi-tarixi muzey kompleksi faşizmə qarşı mübarizədə misilsiz igidliklər göstərmiş azərbaycanlı döyüşçülərin şərəfinə ucaldılmış mədəniyyət abidəsidir. Muzey əsasən azərbaycanlılardan təşkil edilmiş 416-cı Taqanroq diviziyasının döyüş salnaməsini özündə yaşadır.

## Qorunan yaddaş

Buna qədər adıçəkilən qəsəbə yaxınlığında “Sambek yüksəkliyi şöhrət memorialı” var idi. Bakılı heykəltəraş Elcan Şamilovun və rostovlu İ.V.Qriqorun müəllifi olduqları abidə kəndin ətrafındakı ən hündür nöqtədə, vaxtilə mövcud olmuş səngərlərin yerində, pulemyotların yerləşdirildiyi ərazidə ucaldılmışdı. 7 may 1980-ci ildə o zaman sovet Azərbaycanına rəhbərlik edən Ulu Öndər Heydər Əliyev başda olmaqla Azərbaycandan gəlmiş nümayəndə heyətinin iştirakı ilə abidənin açılışı olmuşdu.

Reportajda 1980-ci ilin mayında fazişm üzərində qələbənin 35-ci ildönümü münasibətilə keçirilən açılış mərasimindəki çıxışı zamanı Ulu Öndərin səsləndirdiyi fikirlər də xatırlandı. Heydər Əliyev həmin çıxışı zamanı Don torpağında ucaldılmış möhtəşəm monumenti Rostov vilayəti və Azərbaycan zəhmətkeşlərinin bu döyüşlərin sağ qalmış və həlak olmuş bütün qəhrəmanlarının nəcib xatirəsinə hörmət və minnətdarlıq əlaməti kimi qiymətləndirmişdi.

Rostov vilayətini azad etmiş 416-cı Taqanroq atıcı diviziyasının döyüşçülərinin 90 faizindən çoxunun əslən Azərbaycandan olması, bu diviziyanın təkcə Rostovu deyil, bütün Rostov vilayətini, o cümlədən Taqanroq şəhərini azad etməsi faktını reportajlardakı müsahibəsi zamanı Azərbaycan Prezidenti İlham Əliyev də izləyicilərin diqqətinə çatdırdı. Eyni zamanda Melitopol, Kişineu, Odessa şəhərlərini də 416-cı diviziyanın azad etdiyini xatırlatdı:

*“Bu diviziya uğurla həyata keçirilmiş Mozdok əməliyyatında xüsusilə fərqlənib. Əslində, bu əməliyyat Bakı şəhərinin faşistlər tərəfindən tutulmasının qarşısını alıb. Əks halda Böyük Vətən müharibəsinin nəticələri fəlakətli olardı. O dövrdə cəbhə üçün yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edirdi. Əgər Azərbaycan və onun mədənləri faşistlərin əlinə keçsəydi, müharibənin nəticəsi tamam başqa olardı”.*

## Tarix yazan diviziya

416-cı atıcı diviziyası Zaqafqaziya Hərbi Dairəsi komandanlığının 1942-ci il 22 fevral tarixli əmrinə əsasən Ucar rayonunda formalaşdırılmışdı. Bu, Böyük Vətən müharibəsində iştirak edərək misilsiz qəhrəmanlıqlar göstərmiş Azərbaycanın 6 milli diviziyasından biri idi. Digər diviziyalar, xüsusilə 77-ci Simferopol dağ-atıcı, 402-ci, 271-ci, 396-cı atıcı, 223-cü Belqrad milli diviziyaları Polşa və Çexoslovakiyanın, Yuqoslaviyanın, Moldovanın, Simferopol şəhərinin, bütövlükdə Krımın və başqa yerlərin azad edilməsində iştirak etmiş, onların odlu müharibə yollarında, qanlı döyüş meydanlarındakı şücaətləri xüsusi diqqətə layiq görülmüşdü. O zaman Bakı döyüşən ordunun ən mühüm cəbbəxanasına çevrilmişdi. İnsanlar “hər şey cəbhə üçün, hər şey qələbə üçün” şüarı altında mübarizəyə qalxmışdı.

416-cı atıcı diviziyanın şəxsi heyətinin 92 faizi azərbaycanlılardan təşkil olunmuşdu. Bölmələr təxminən yarım il hazırlıq keçmişdilər. Diviziyanın döyüş yolu Qafqazdan başlamışdı. 1942-ci il sentyabrın əvvəllərində 44-cü ordunun tərkibinə daxil edilərək Şimali Qafqazdakı Xasavyurt rayonuna göndərilmişdi. Onda Qafqaz uğrunda döyüşlərin ən şiddətli vaxtları idi. “Krasnaya zvezda” qəzeti 1942-ci ilin 26 sentyabr sayında yazırdı: “Üç aydır ki, ölkəmizin cənubunda qızğın döyüşlər gedir. Sovet ölkəsinin və bütün dünyanın nəzərləri Şimali Qafqaz və Stalinqrad ətrafına yönəlmişdir, Vətənin taleyi və milyonlarla sovet adamının azadlığı və həyatı bu döyüşlərdən asılıdır! Bunu ancaq 1942-ci ilin payızında Moskvanın müdafiəsi ilə müqayisə etmək olar”.

O zaman Hitler Berlindən “Birinci” tank ordusu qərargahına teleqram göndərib Bakının işğalının sürətləndirilməsini tələb etmişdi. Ona görə də Almaniyanın “Cənub” ordu qrupu komandanlığının birinci vəzifəsi Donun arxasına keçmiş sovet qoşunlarını Rostovun cənub və cənub-şərq rayonunda mühasirəyə alıb sıradan çıxarmaq idi. Tərkibində əsasən tank və motorlu birləşmələr olan digər güclü qruplaşmanın niyyəti isə Qroznını və Mahaçqalanı ələ keçirmək, qüvvələrin bir hissəsi ilə Osetiyanın və Gürcüstanın hərbi yollarını kəsmək idi. Bu istiqamətdə hücumun son məqsədi Bakıya yiyələnmək idi.

1942-ci ilin oktyabrında 416-cı diviziya 58-ci ordunun tərkibinə daxil edilərək, Sulak çayının şərq sahilində düşmənin Mahaçqala istiqamətindəki hücumlarına qarşı mövqedə yerləşdirildi. Həmin ilin noyabrında yenidən 44-cü ordunun tərkibinə daxil edildi və təcili olaraq Terek stansiyası zonasında döyüş xəttinə göndərildi. 1942-ci ilin 26 noyabrında diviziya ilk böyük hücuma keçdi. Həmin gün bu hərbi hissənin əsgər və zabitləri Novo-Lednov-Kapustin xəttində 69-cu Qafqaz süvari diviziyasını əvəz edərək düşmənlə döyüşə girdilər. Dekabrın 5-də axşama yaxın diviziya mühüm sayılan təpəyə yiyələndi və İşşevskaya stansiyasına çıxdı.

1943-cü il yanvarın əvvəlinədək olan dövrdə diviziya Qafqazdan Azov sahilinə qədərki məsafəni döyüşlərlə qət edərək, növbəti əməliyyatlara hazırlaşmağa başladı. 1942-ci ilin noyabrından bir-birinin ardınca keçirilən əks-hücumlar nəticəsində üç ayda Şimali Qafqaz düşməndən azad edildi və bu qələbə Rostov istiqamətində döyüşlərə başlamağa zəmin yaratdı. 1943-cü ilin 21 fevralında 416-cı diviziyanın hərbi əməliyyatların ikinci dövrünə hazırlığına start verildi. Bunun üçün diviziyaya Azərbaycandan daha 1500 nəfər döyüşçü göndərildi.

Rostov uğrunda gedən hərbi əməliyyatlar müharibədə həlledici əhəmiyyət daşıyırdı. Reportajda da qeyd edildiyi kimi, Don regionu faşistləri təkcə ucsuz-bucaqsız məhsuldar tarlalara malik olan taxıl mənbəyi kimi cəlb etmirdi. Yuxarıda da qeyd etdiyimiz kimi, Qafqazın qapısı, Maykopa, Qroznıya, Bakıya, daha sonra Fars körfəzinə gedən yollar buradan başlanırdı. Ona görə də hitlerçilər öz mənfur məqsədlərinə çatmaqdan ötrü ağlasığmaz vəhşiliklər, dağıntılar, barbarlıq və qeyri-insani hərəkətlər törədirdilər.

Sambek yüksəkliyi isə xüsusilə şiddətli döyüşlərin getdiyi yerdir. Bura Mius çayının sağ sahilində Donetsk diyarının cənub yamaclarındakı yüksəkliklər, təpələr, kurqanlar silsiləsidir. Kurqanlardan ən ucası həmin yerdən 40 kilometr məsafədə yerləşən Saur-Mogila kurqanıdır. Onun hündürlüyü 277,9 metrə bərabərdir. Faşistlər burada, Sambekdə dəniz səviyyəsindən 80-100 metr yüksəklikdə əlçatmaz mövqe tutmaq üçün mümkün olan hər şeyi edirdilər. Təkcə ön xətdə 3 min kilometrə yaxın xəndək qazılmışdı. Bu, Berlinə qədər məsafədən iki dəfə çox idi.

Amma 416-cı diviziyada döyüşən azərbaycanlı əsgər və zabitlərin qətiyyəti faşistlərin azğınlığına üstün gəldi. 1943-cü ilin 17 avqustunda Taqanroq istiqamətində başlanmış hücumlarda fəal iştirak edən diviziya böyük qəhrəmanlıqlar göstərdi. Avqustun 30-da Taqanroq şəhəri düşməndən azad edildi. Bu qələbənin, göstərdiyi qəhrəmanlığın şərəfinə “416”ya “Taqanroq diviziyası” fəxri adı verildi.

1943-cü il sentyabr ayının 7-də “416”nın mərd oğulları hitlerçilərin 3-cü dağ-atıcı diviziyası tərəfindən müdafiə olunan güclü istehkam xəttinə çatdı. Düşmən istehkamları Mariupol və Osipenko şəhərlərinə gedən yolları bağlamışdı. Sentyabrın 8-9-da Azərbaycan diviziyası düşmənin müqavimətini qıra bildi. Faşistlərin 10 əks-hücumuna mərdliklə sinə gərən döyüşçülərimiz qazandıqları mövqeləri əldə saxlamağa müvəffəq oldular. Bu döyüşlərdə düşmənin 4 mindən çox əsgər və zabiti məhv edildi. Xeyli sayda döyüş texnikası ələ keçirildi.

Hərbi əməliyyatlardan sonra milli diviziyaya Azərbaycandan daha 2500 nəfər yeni döyüşçü qoşuldu. Müvafiq hazırlıq aparıldı və oktyabrın 10-dan onlar növbəti döyüşlərə başladılar.

## Qələbə atəşləri

Azərbaycanın əsgər və zabitləri eyni qəhrəmanlığı Mariupol, Osipenko, Nikolayev, Melitopol şəhərləri uğrunda gedən şiddətli döyüşlərdə də nümayiş etdirdilər. 1944-cü ilin yanvarında 416-cı diviziya 3-cü Ukrayna cəbhəsində 5-ci zərbə ordusu tərkibində hücuma başlayaraq Dnestr çayını keçdi. Bu hərbi əməliyyatdakı qəhrəmanlıqlarına görə diviziyanın döyüşçülərindən Mikayıl Ələkbərov, Bahəddin Mirzəyev, A.Vəliyev, Fəriz Səfərov və Ağaşirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Həmin ilin 9 aprelində diviziya Odessa şəhəri yaxınlığına çatdı və onun düşməndən azad edilməsində fəal iştirak etdi. Bu qələbəyə görə 416-cı Taqanroq diviziyası “II dərəcəli Suvorov” ordeni ilə təltif olundu. 1944-cü ilin yayından başlayaraq 416-cı diviziya 3-cü Ukrayna cəbhəsi tərkibində həyata keçirilmiş məşhur Yassa-Kişinyov döyüş əməliyyatında, Moldovanın paytaxtı Kişinyov şəhərinin, eləcə də bütün Moldovanın azad edilməsində də qəhrəmanlıq göstərdi.

Reportajda Azərbaycan Prezidenti maraqlı bir faktı da yada saldı. 416-cı diviziyanın Berlinin götürülməsində də fərqləndiyini, Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçülərinin tutduğunu, Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancdığını xatırlatdı: *“Azərbaycan bizim ümumi Qələbəmizə layiqli töhfə verib. 128 Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Azərbaycanda hərbi texnika istehsal edilirdi. Müəssisələr gecə-gündüz işləyirdi. Qeyd etməliyəm ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib. Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb”.*

...I Belarusiya cəbhəsindəki ağır döyüşlərdən, Varşavanın azad edilməsində fəal iştirakdan və Oder çayının qərb sahilinə çıxaraq, düşmənin Kyustrin şəhərini tutandan sonra mayın 1-də Berlinə ilk daxil olan hərbi hissələrdən biri də məhz 416-cı diviziya idi. Digər hissələrlə qarşılıqlı əlaqə yaradaraq diviziya mayın 2-də səhər hitlerçilərin son mövqelərini də darmadağın etməklə Brandenburq darvazası üzərinə Qırmızı bayraq sancdı. Qələbə bayrağını taxanlar 416-cı milli diviziyadan leytenant A.Məcidovla onun Məmmədov və Əhmədzadə adlı döyüşçüləri idilər. Brandenburq qapıları önündə keçirilmiş mitinqdə general V.P.Züvanov çıxışında da bu əlamətdar anı xüsusi vurğulayaraq demişdi: “Berlin uğrunda tarixi döyüşdə sonuncu güllə məhz burada - Brandenburq qapıları önündə atıldı. Bu sonuncu gülləni də məhz qəhrəman Azərbaycan xalqının övladları atdı”.

Kayzerin sarayı üzərinə Qələbə bayrağını sancan zaman isə əfsus ki, diviziyanın döyüşçüsü, leytenant Vahab Osmanov faşist gülləsindən həlak oldu. Buna qədər isə diviziyanın əsgər və zabitləri Reyxsbankın, Daxili İşlər Nazirliyinin, Berlin Dövlət Universitetinin, SSRİ-nin keçmiş səfirliyinin, Maliyyə Nazirliyinin və digər dövlət qurumlarının binalarını azad etmişdilər.

Ümumilikdə isə 416-cı milli diviziya cəbhədə 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Berlinə qədər minlərlə kilometr yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək, düşmənin 23 mindən çox canlı qüvvəsini, 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, külli miqdarda qənimət ələ keçirmişdi.

Diviziyanın 1368-ci atıcı alayı “Boqdan Xmelnitski” ordeni, 1054-cü topçu alayı “Qırmızı Bayraq” ordeni, 44-cü əlahiddə topçu divizionu “Aleksandr Nevski” ordeni, 348-ci əlahiddə sanitar batalyonu “Qırmızı Bayraq” ordeni ilə təltif edilmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri də keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuşdular. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları da verilmişdi.

416-cı Azərbaycan milli diviziyası general Dmitri Sızvanovun komandirliyi ilə yaradılsa da, sonrakı dövrlərdə ona və alaylarına general-mayorlar Tərlan Əliyarbəyov, Heybət Heybətov, Hacıbaba Zeynalov (diviziyanın qərargah rəisi) komandirlik etmişlər. Diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bilmişdi.

## Müqəddəs dəyər

Bu gün 416-cı Taqanroq diviziyasının döyüş yolu və onun qələbələri şərəfinə xatirə abidələri ucalır, şöhrət muzeyləri yaradılır. Bu, dünyanın faşizm kimi dəhşətli bir bəladan xilası uğrunda canını fəda etmiş igid döyüşçülər qarşısında mənəvi borcdur.

Azərbaycan isə bəşəriyyətin bu ümumi qələbəsi uğrunda canlarından keçmiş hər kəsin müqəddəs xatirəsinə göstərdiyi ehtiramla bir nümunə yaradır. Göstərir ki, böyük dəyərləri heç nəyə qurban verməK, şəraitdən asılı olaraq onlara münasibəti dəyişmək olmaz. Bunu müsahibəsində Azərbaycan Prezidenti də qeyd etdi: *“Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik. Azərbaycanda veteranlar diqqət və qayğı ilə əhatə olunub, biz həmişə faşistlərin qəhrəmanlaşdırılmasının əleyhinə, faşizm üzərində Qələbədə Sovet İttifaqının rolu haqqında tarixi həqiqətin qorunub saxlanması naminə çıxış etmişik və edirik. Əminəm ki, bunu yeni memorialın açılması da göstərəcək. Biz çalışırıq ki, gələcək nəsillər ata və babalarımızın igidliyini unutmasınlar, onlar ümumi Qələbəmizi müqəddəs bir dəyər kimi yad etsinlər, ümumi Qələbəmizə sanballı və həlledici töhfə verənlər haqqında həqiqəti bilsinlər”.*

Bu münasibət Azərbaycan dövlətinin tarix qarşısında yaratdığı ən böyük dəyərlərdən biridir.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

◆ 18 Sentyabr Üzeyir Musiqi Günüdür

# Üzeyir bəy zirvəsi



*Əvvəli 1-ci səh.*

18 sentyabr - Üzeyir bəyin doğum günüdür. Bu gün xalqımız üçün böyük bayramdır. 1995-ci ildən Ulu Öndər Heydər Əliyevin imzaladığı sərəncama əsasən, 18 Sentyabr Milli Musiqi Günü kimi qeyd edilir. Bu gün xalqımız Üzeyir Hacıbəyli zirvəsinə bir daha sevgi və minnətdarlıqla baxır.

## İlk möhtəşəm əsər - “Leyli və Məcnun”

Hələ bəstəkar, musiqiçi kimi məşhurlaşmadığı illərdə də Üzeyir Hacıbəyli tanınırdı. XX əsrin ilk onilliyindən etibarən gənc Üzeyir bəy qabaqcıl ziyalıların ön sırasındaydı. Jurnalist, yazıçı, pedaqoq kimi vətəninə xidmət edir, soydaşlarının hüquqlarını qorumaq, işıqlı gələcəkləri naminə mübarizə aparırdı. Dünyada ziddiyyətli siyasi-ictimai hadisələr birbirini əvəz etdiyi, Azərbaycanı da öz müstəmləkəsinə çevirmiş çar Rusiyasında vəziyyətin xüsusi ilə kəskinləşdiyi, iğtişaşların ara vermədiyi bir zamanda Üzeyir bəy yorulmaq bilmədən çalışırdı. Elə həmin illərdə Üzeyir Hacıbəyli adı həm də Azərbaycan musiqi sənətinə qovuşdu. Gənc Üzeyir bəy 1907-ci ildə Şərqdə birinci opera olan “Leyli və Məcnun”u yazdı. Məhəmməd Füzulinin eyniadlı poemasının motivləri əsasında yazılmış opera ilk redaktədə 5 pərdə və 6 şəkildə, sonrakı quruluşlarda 4 pərdə, 6 şəkildə idi. Librettonun müəllifi Üzeyir bəy idi. Əsərin ilk tamaşası 1908-ci il yanvarın 25-də Tağıyev teatrında oldu. O gün zalda nəinki boş yer yox idi, hətta əlavə stullar qoyulmuşdu. Janr Azərbaycan musiqisevərləri üçün yeni, ancaq mövzu, musiqinin ruhu tanış və doğma idi.

Operanın ilk dirijoru Əbdürrəhim bəy Haqverdiyev, rejissoru Hüseyn Ərəblinski oldu. Məcnun rolunda Hüseynqulu Sarabski, Leyli rolunda isə aşpaz şagirdi Əbdürrəhim Fərəcov çıxış etdilər.

İlk tamaşanın təəssüratları günlərlə unudulmadı. Şəhərdə əsas söhbət bu barədəydi. Mətbu orqanlar yeni əsərdən və onun istedadlı müəllifindən yazırdılar...

Azərbaycan musiqi mədəniyyəti “Leyli və Məcnun”la yeni dövrə qədəm qoydu. Üzeyir Hacıbəyli bundan sonra həm özü yeni musiqi əsərləri yazdı, həm də bu sahədə istedadı olanların əlindən tutdu, yol göstərdi.

Üzeyir bəy “Leyli və Məcnun”dan sonra musiqimizi “Şeyx Sənan”, “Rüstəm və Söhrab”, “Şah Abbas və Xurşudbanu”, “Əsli və Kərəm”, “Harun və Leyla” operaları və üç musiqili komediyası - “Ər və arvad”, “O olmasın, bu olsun”, “Arşın mal alan”, xalq calğı alətləri orkestri üçün iki fantaziyası, xalq mahnı işləmələri, eləcə də bir sıra mahnıları, kantataları ilə zənginləşdirdi. Və...

## Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi - “Koroğlu”

Dünya klassik operaları sırasında layiqli yer tutan bu əsər üzərində Üzeyir Hacıbəyli 1932-1936-cı illərdə işləyib. Mübariz ruhlu sənətkar xalqın qəhrəman oğlu Koroğluya layiqli qiymətini vermək, onu doğru baxımdan tanıtmaq niyyətindəydi. “Koroğlu” operasının libretto müəlliflərindən biri M.S.Ordubadi öz xatirələrində yazırdı: “Bir gün Üzeyir bəy mənim yanıma gəldi. Nədənsə o, çox tərəddüdlü görünürdü. Nəhayət, o, öz qəlbini açıb dedi:

- “Koroğlu” dastanı əsasında bir opera yazmaq xəyalındayam. Sən bilirsən ki, Koroğlunun qəhrəmanlıq siması müxtəlif variantlar içərisində itib getmişdir. Koroğlu kimi səbatlı bir üsyançını orta əsrlərə məxsus bir çapqın və eşqbaz kimi qələmə verirlər. Buna görə də biz Koroğlu epoxasının siyasi və ictimai mündəricəsini yazdığımız operada aydınlaşdırmalıyıq. Xalqımız Koroğlunun möhkəm bir qəhrəman olduğunu, öz əsrinin məşhur üsyan təşkilatçısı kimi feodallara qarşı mübarizə apardığını səhnədə görməlidir.

Üzeyir bəy bu sözlərdən sonra mənə bir daha müraciət etdi:

- Demək ki, biz bunu qərara alırıq! - dedikdə, mən də əlimdəki çay stəkanını yerə qoyub: - Bəli, qərarlaşdıq, - deyə cavab verdim”.

“Koroğlu”ya qədər Üzeyir Hacıbəyli böyük yaradıcılıq yolu keçmişdi. O, bu əsəri uzun illər topladığı yaradıcılıq təcrübələri, dünya musiqi mədəniyyətini dərindən əxz etməsi və müqayisəyəgəlməz istedadının qüdrətilə yazmışdı. Üzeyir bəy bildrirdi: “Müasir musiqi mədəniyyətinin nailiyyətlərindən istifadə edərək qarşımda formaca milli opera yazmaq məsələsi qoymuşdum... Belə bir vəzifəni yerinə yetirmək üçün bəstəkardan ciddi nəzəri hazırlıq tələb olunmaqla bərabər, xalq yaradıcılığını, musiqi folklorunu dərindən öyrənmək, musiqi dilini mənimsəmək, xalq ilə onun anladığı dildə danışmaq istedadını kompozitora verən sadəlik və aydınlığı dərk etmək tələb olunur”.

“Koroğlu” beşpərdəli operadır. Bu opera Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi hesab edilir. Üzeyir bəy ilk dəfə “Koroğlu”da klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri yaratdı.

Əsərin ilk tamaşası 1937-ci il aprelin 30-da M.F.Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrında oldu. “Koroğlu” operasının librettosu H.İsmayılov və M.S.Ordubadi tərəfindən yazılıb. Əsərə rejissor İsmayıl Hidayətzadə quruluş verib. Tərtibatçı-rəssam isə R.Mustafayev idi. Dirijor pultu arxasında Üzeyir bəy özü dayandı.

Koroğlu rolunun ilk ifaçısı unudulmaz sənətkarımız Bülbül idi. Nigar rolunu isə Gülarə İsgəndərova ifa edirdi. Digər rolların ifaçıları X.Haqverdiyev, M.Bağırov, Ə.Zülalov, Q.Hüseynov, B.Mustafayev, M.Paşayeva oldu. Rəqslərə Qəmər Almaszadə quruluş verdi.

“Koroğlu” elə premyerasından tamaşaçıları ovsununa sala bildi. O gün mədəniyyət tariximizdə bayrama çevrildi.

Üzeyir Hacıbəyli öz əsəri barədə yazırdı: “Koroğlu” operasında bilavasitə xalq yaradıcılığından götürülmüş əsl xalq melodiyaları yoxdur. Mən xalqdan hazır nəğmələr almamışam, yalnız xalq yaradıcılığının əsaslarını öyrənmişəm. Operadakı ariya, duet, reçitativ, ansambları Azərbaycan musiqi ladlarında, Azərbaycanın musiqi folkloru əsasında qurmuşam. Koroğlunu aşıqlar tərənnüm etmiş və ona görə də operada üstün gələn stil aşıq stilidir”.

Ə.Bədəlbəyli xatirələrində Üzeyir Hacıbəylinin əsər üzərində dörd il çalışdığını yazırdı: “Lakin əsərin bəzi musiqi parçalarının melodikasının müəllifin zehnində çox-çox əvvəllərdən nəqş bağladığı da məlumdur. Böyük bəstəkar əsərinin hər səhifəsini, hər parçasını dönə-dönə cilalayır, lazım gəldiyi halda tamamilə yenidən bəstələyirdi. Burada həm mətn, həm də musiqi büsbütün yeni şəkildə, yeni biçimdə yaradılırdı”.

“Koroğlu”ya görə Üzeyir Hacıbəyli “Stalin” mükafatına layiq görüldü.

1938, 1959-cu illərdə Moskvada Azərbaycan musiqi incəsənəti ongünlüyündə, 1975-ci ildə isə “Zaqafqaziya musiqi baharı” festivalında “Koroğlu” böyük uğur qazandı.

1941-ci ildə Azərbaycan teatrı operanı İranda göstərdi. Tamaşa tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı. “Koroğlu” Aşqabadda (1939, türkmən dilində), Daşkənddə (1950, özbək dilində) tamaşaya qoyuldu. Azərbaycan Opera və Balet Teatrının qastrol tamaşaları zamanı “Koroğlu” Təbriz, Tiflis, Kiyev, Peterburq və başqa şəhərlərdə göstərildi.

İllər ötür. Azərbaycan musiqi sənəti addım-addım irəliləyir, sərhədləri aşır, dinləyiciləri heyran edir. Yeni istedadlar gəlir, onlar öz əsərləri ilə musiqi sənətimizi zənginləşdirirlər. Azərbaycan musiqi sənətinin ön sırasında isə əbədi olaraq bir ad, bir imza var. O, Üzeyir Hacıbəylidir...

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tenderə dəvət edir

Tender 5 LOT üzrə keçirilir:

**LOT 1 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan mal-materialların açıq tender üsulu ilə satın alınması.**

**LOT 2 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan PVC boru və birləşdiricilərin açıq tender üsulu ilə satın alınması.**

**LOT 3 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan istismar işləri üçün istifadə olunacaq mal-materialların açıq tender üsulu ilə satın alınması.**

**LOT 4 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan Fiber optik, TPP kabelləri və birləşdiricilərin satın alınması.**

**LOT 5 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, , EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan qum,sement,çınqıl və s. mal-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 400 (dörd yüz) manat (ƏDV daxil)**
**LOT 2 - 1000 (bir min) manat (ƏDV daxil)**
**LOT 3 - 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 4 - 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 5 - 250 (iki yüz əlli) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **09 oktyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **19 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **20 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az - dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

# "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə nəqliyyat vasitələri və xüsusi texnikalar üçün süzgəclərin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının https://www.etender.gov.az - vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu;

-tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİIBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 oktyabr 2020-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 16 oktyabr 2020-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 19 oktyabr 2020-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə polipropilen fitinqlərin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının https://www.etender.gov.az- vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu;

- tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİIBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 oktyabr 2020-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 16 oktyabr 2020-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 19 oktyabr 2020-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən "Reabilitasiya məmulatları müəssisələrinin məlumat sistemi proqram təminatının satın alınması" ilə əlaqədar etender.gov.az Portalında 27 avqust 2020-ci il tarixdə elan etdiyi açıq tenderin ilkin sənədlərinin qəbul tarixi 21.09.2020-ci il saat 15:00-a, tender təkliflərinin qəbul tarixi 29.09.2020-ci il saat 18:00-a, zərflərin açılış tarixi 30.09.2020-ci il saat 15:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

# "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün təkliflər sorğusu elan edir

Çamaşıryuma maşınlarının satın alınması

Təkliflər sorğusu üzrə tələb edilən sənədlər 23 sentyabr 2020-ci il saat 16:00-dək qəbul edilir.

Təkliflər 24 sentyabr 2020-ci il saat 12:00-dək təqdim edilməlidir.

Zərflər 24 sentyabr 2020-ci il saat 14:00-da açılacaqdır.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**

**Telefon nömrəsi: +994 55 500-45-99; +994 55 204-15-20**

***Tender komissiyası***

# Ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə narkotik vasitə keçirmək istəyən sərhəd pozucularından biri zərərsizləşdirilib

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhədlərin etibarlı mühafizəsi sahəsində tədbirləri uğurla davam etdirir.

Sentyabrın 17-də külli miqdarda narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun 2-ci Şahsevən kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 2 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkarlanıb. Sərhəd pozucularının əllərində silah və yüklərin olması müşahidə edilib.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayıb, sərhəd naryadına qarşı silah tətbiq etməklə geri qaçmağa cəhd göstəriblər.







Sərhəd naryadı tərəfindən "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq silah tətbiq olunub, sərhəd pozucularından biri aldığı güllə yarasından hadisə yerində ölüb. Digər sərhəd pozucusu ərazinin mürəkkəb relyefli olmasından istifadə edərək geri qaçıb.

Dövlət sərhədinin pozulması cəhdinin qarşısının alındığı əraziyə baxış zamanı bir tüfəng, iki çantada təxmini çəkisi 15 kiloqram olan narkotikə bənzər maddə aşkarlanıb.

Sərhəd pozucuları ilə görüşərək onlardan yükü təhvil almağa gəlmiş və sərhəd zastavasının mühəndis-texniki çəpərindəki məftilləri qıraraq sərhədboyu zolağa daxil olmuş Azərbaycan Respublikasının vətəndaşı, Beyləqan rayon sakini 1975-ci il təvəllüdlü Məmmədov Adiş Cavad oğlu saxlanılıb, üzərində sərhəd pozucularına vermək üçün gətirdiyi 10 ədəd şüşə qabda alkoqol içkiləri aşkar olunub.

Hadisə barədə İran sərhəd nümayəndəliyi məlumatlandırılıb.

Hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin və Hərbi Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

***"Azərbaycan"***

# Baş Prokurorluq Nərimanov rayonundakı intihar hadisəsinə münasibət bildirib

Baş Prokurorluq bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində 121 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Naidə İsayevanın paytaxtın Nərimanov rayonunda çoxmərtəbəli binadan özünü ataraq intihar etməsi barədə yayılan məlumatlara münasibət bildirib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda qeyd olunub ki, sentyabrın 16-da saat 15 radələrində paytaxtın Suraxanı rayonunun Hövsan qəsəbə sakini Naidə İsayevanın Nərimanov rayonu Aşıq Molla Cümə küçəsində yerləşən çoxmərtəbəli binanın 16-cı mərtəbəsindən özünü ataraq intihar etməsi barədə Nərimanov Rayon Prokurorluğuna məlumat daxil olub.

Dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Nərimanov Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə müvafiq ekspertizalar təyin edilib, şahidlərin dairəsi müəyyənləşdirilərək dindirilib, o cümlədən digər prosessual hərəkətlər yerinə yetirilib.

Cinayət işi üzrə bütün halların tam, hərtərəfli və obyektiv araşdırılması məqsədilə istintaq tədbirləri davam etdirilir.

# ABŞ-da "Salli"nin ilk qurbanı haqqında məlumat verilib

"Salli" qasırğası Amerikanın Alabama ştatında bir adamın ölümünə səbəb olub və böyükmiqyaslı daşqın yaradıb. Bu barədə Oranc-Biç şəhərinin meri Toni Kennona istinadən "Associated Press" agentliyi xəbər verir.

Bu, çərşənbə gecəsi Meksika körfəzinin sahilini vurduğu zaman ikinci kateqoriyalı olan "Salli"nin ilk qurbanıdır. Hadisənin təfərrüatı hələ dəqiqləşdirilməyib. Alabamanın daha bir sakini itkin düşüb. 377 nəfər təxliyə olunub.

Qasırğaların müşahidə edilməsi üzrə Milli Mərkəzin məlumatına görə, "Salli" artıq tropik fırtınaya qədər zəifləyib. Atmosfer hadisəsinin içərisində küləyin sürəti 20,1 m/s təşkil edir. "Salli" Dotandan (Alabama ştatı) 110 km şimal-qərbdə yerləşir və 11,2 km/saat sürətlə şimal-şərqə hərəkət edir.

Meteorologların qiymətləndirməsinə görə, "Salli" Floridada və Alabamanın cənubunda "fəlakətli və həyat üçün təhlükəli daşqına" səbəb olub. 550 minə yaxın istehlakçı işıqsız qalıb.

# Beynəlxalq aləm

## Fransa PKK üzvünü Türkiyəyə deportasiya edir

Fransa hökuməti PKK terror təşkilatının üzvü Mehmet Yalçını Türkiyəyə deportasiya etmək qərarına gəlib və ona sığınacaq verməkdən imtina edib.

Yalçın 2006-cı ildə qanunsuz yolla Fransa ərazisinə daxil olmuşdu.

Ötən il Parisin Apelyasiya Məhkəməsi əlbirliyinə və terror təşkilatına maliyyə dəstəyinə görə onu iki il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edib. Yalçın bir neçə dəfə Fransa hakimiyyətinə sığınacaq verilməsi barədə vəsatətlə müraciət etsə də, onun bütün müraciətləri rədd edilib.

Türkiyədə məhkəmə qərarı ilə Mehmet Yalçın qətl törədilməsi və PKK-ya üzvlüyü üçün Mehmet Yalçın barəsində axtarış elan olunmuşdu.

## Avropa Parlamenti Ər-Riyada və Əbu-Dabiyə silah satışını məhdudlaşdırmağa çağırıb

Avropa Parlamenti (AP) Aİ ölkələrini səudiyyəli jurnalist Camal Qaşıkçının qətlə yetirilməsi və Yəməndə davam edən münaqişə səbəbindən Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) silah satışını məhdudlaşdırmağa çağırıb.

Avropa İttifaqı ölkələrini silah ixracına ümumi nəzarəti gücləndirməyə çağıran qətnamə layihəsi AP-nin iclasında qəbul edilib. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SİPR) məlumatına görə, Aİ ölkələri Səudiyyə Ərəbistanı və BƏƏ-yə silah tədarükü üzrə ikinci yeri tutur.

Sənəddə BMT-nin Yəməndəki münaqişələrdə tərəflərin hərbi cinayətlər törətdiyi bildirilir, həmçinin Belçika, Danimarka, Finlandiya, Almaniya, Yunanıstan, İtaliya və Niderlandın Səudiyyə Ərəbistanı başda olmaqla koalisiya ölkələrinə silah satışının məhdudlaşdırılması haqqında qərarı alqışlanır.

## Əfqanıstanda 29 talib öldürülüb

"Taliban" radikal hərəkatının təxminən 30 üzvü əfqan təhlükəsizlik qüvvələri tərəfindən Nənqarhar vilayətində toqquşmalar zamanı ölgürülüb. Bu barədə 1 TV telekanalı əyalət administrasiyasının nümayəndəsi Atatulla Hoqyaninin bəyanatına istinadən xəbər verib.

Məlumata görə, ekstremistlər Hesarak və Şerzad rayonlarında təhlükəsizlik qüvvələrinin bir neçə məntəqəsinə hücum ediblər. Hökumət qüvvələrinin dəstələrinin cavab hərəkətləri nəticəsində 29 radikal məhv edilmişdir. Taliblərdən ən azı 20 nəfəri yaralanıb.

İlkin məlumatlara əsasən, Əfqanıstanın təhlükəsizlik qüvvələri döyüşçüləri arasında 20 nəfər həlak olub. Döyüşlər nəticəsində 15 hərbçi yaralanmışdır.

# Samsung smartfon və ya planşet əldə et, “Azercell”dən 1 il boyunca 1GB internet hədiyyə qazan

Abunəçilərinə ən yaxşı müştəri təcrübəsi yaşatmağı hədəfləyən “Azercell Telekom” MMC müasir həyatın ayrılmaz hissəsinə çevrilən rəqəmsal xidmətləri və ən son model smartfonları daha da əlçatan edir.

Ölkənin lider mobil operatoru “Azercell” dünya bazarında keyfiyyət və etibarlılığı ilə seçilən Samsung şirkəti ilə birgə yeni kampaniyaya start verir. Sentyabr ayının 15-dən etibarən “Azercell” ailəsinə yeni qoşulan hər bir abunəçi Samsung brendinə məxsus istənilən model smartfon və ya planşet əldə edərək 1 il boyunca aylıq 1 GB internet hədiyyə qazanır.

Kampaniyadan yararlanmaq üçün oktyabr ayının 30-dək “Azercell” diler və Eksklüziv mağazalarına yaxınlaşaraq, yeni “Azercell” nömrəsi ilə birgə müasir dizayna malik çoxfunksiyalı Samsung cihazlarından birini əldə etmək kifayətdir.

Bu payız “Azercell” ilə xatirələrinizi internetə pul xərcləmədən bölüşün!




## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 221500 “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” bütün növ yataq ləvazimatlarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 manatdır.**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 20 oktyabr 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 28 oktyabr 2020-ci il saat 17:00-a qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri 29 oktyabr 2020-ci il saat 15:00-da Portalda açılacaqdır.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi kompüter və digər texniki avadanlıqların satın alınması ilə əlaqədar

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış* ***(01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir)****;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur)****;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir)****;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri , yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **07.10.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **15.10.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16.10.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən sair avadanlığın satın alınması məqsədilə keçirilən kotirovka sorğusunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun yekun protokoluna əsasən fiziki şəxs Hüseynov İlham İdris oğlu qalib elan edilmişdir.

Qalib gəlmiş fiziki şəxslə 14.09.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi “Mühərriksiz kənd təsərrüfatı aqreqatlarının istehsal potensialının öyrənilməsi” üzrə daxili bazar araşdırmalarının aparılması ilə bağlı məsləhət xidmətinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı: 90 AZN

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**

**Bank rekvizitləri: “Kapital Bank” ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 15.10.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 23.10.2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 26.10.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

İddiaçılar E-şərtlər toplusunu 18 sentyabr (elan tarixi günü) saat 16:00-dan sonra əldə edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 13 və 18 avqust 2020-ci il tarixli nömrələrində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Kosmetik təmir materiallarının satın alınması və Çap və nüsxələmə avadanlıqlarına texniki xidmətin satın alınması üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğundan “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən bu LOT-lar üzrə eTenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 19.05.2017-ci il tarixdə Nurlan Rəsul oğlu Yusiflinin adına verilmiş RX 1056288 nömrəli (reyestr №406013063799) Çıxarış və Cizgi planı itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Ümumi və tətbiqi riyaziyyat kafedrasının kollektivi dosent

**MƏMMƏD İBAD OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Tamir, Zamir və Cabir Yusifov qardaşları “Azneft” İstehsalat Birliyinin baş direktoru Şahmar Hüseynova anası

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Neftqazavtomat EİM” MMC-nin direktoru Rasim Gözəlov və müəssisənin kollektivi “Azneft” İstehsalat Birliyinin baş direktoru Şahmar Hüseynova anası

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Suraxanı Maşınqayırma Zavodu” ASC-nin sədri V.Mahmudov və zavodun kollektivi “Azneft” İstehsalat Birliyinin baş direktoru Şahmar Hüseynova anası

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt şəhər Oftalmoloji Xəstəxanasının baş həkimi İradə Əliyeva və xəstəxananın kollektivi SİHİ Şurasının sədri Elmira Quliyevaya qardaşı

**AZƏR ƏLİ OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 7618**
**Sifariş 2150**
**Qiyməti 40 qəpik**